QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 194 (5666) **13 oktyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi

*"Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirilmişdir"*

Səh 2



6

"Söz və məlumat azadlığının təmin olunması dövlət siyasətinin əsas istiqamətlərindəndir"



6

"Ermənistan rəhbərliyinin Ermənistan-Azərbaycan münaqişəsinə insan hüquqları donu geyindirməsi cəhdləri cəfəngiyatdır"



11

ABŞ-ın "Artsax" sevgisi...



# On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi



***Bu il müsəlman aləmində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ölkəmizdə geniş qeyd edilir. Prezident İlham Əliyev bu hadisəni xalqımızın tarixinin çox mühüm və şərəfli səhifələrindən biri kimi xarakterizə edərək demişdir: "Biz haqlı olaraq fəxr edirik ki, müsəlman aləmində ilk demokratik respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha göstərir ki, azərbaycanlılar azadlıqsevər və mütərəqqi xalqdır". Dövlətimizin başçısı Cümhuriyyətin tarixinə, onun qurucularının xatirəsinə daim böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl Prezidentin Sərəncamı ilə Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmış, 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmuşdur. Lakin Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinə və onun qurucularının xatirəsinə ən böyük ehtiramı onların ideyalarını yaşatması, demokratiya arzularını reallaşdırması, Azərbaycanın müstəqilliyini və suverenliyini etibarlı şəkildə qorumasıdır, desək heç də yanılmarıq...***

Bir neçə gündən sonra Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd edəcəyik. Orta və yaşlı nəsil müstəqilliyin ilk illərinin necə ağır keçdiyini yaxşı xatırlayır. Bir tərəfdən, SSRİ-nin süqutu ərəfəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsində baş qaldıran separatizm daha da güclənmişdi, Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmişdi, soydaşlarımızın 1 milyona qədəri qaçqın və məcburi köçkünə çevrilmişdi, digər tərəfdən isə ənənəvi iqtisadi-ticarət əlaqələri pozulmuşdu, ölkəni iqtisadi və siyasi böhran bürümüşdü. Yalnız 1993-cü ildə Heydər Əliyev Azərbaycanda rəhbərliyə qayıdandan sonra ölkə tədricən bu böhrandan çıxdı, ictimai-siyasi sabitlik, milli-vətəndaş birliyi yaradıldı və cəmiyyət həyatının bütün sahələrində yenidənqurmaya başlanıldı. Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə bu siyasətin layiqli davamçısı kimi cənab İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə onu özünə yeni Prezident seçdi. Cənab İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti, seçkiqabağı təşviqat dövründə səsləndirdiyi "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" ifadəsi qısa müddətdə ona xalq arasında geniş populyarlıq, sonsuz inam və etibar qazandırdı. Elə bu səbəbdən 2008, 2013 və 2018-ci illərdə keçirilən prezident seçkilərində də İlham Əliyev yenidən inamlı qələbə qazandı. Oktyabrın 15-də Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin 15 ili tamam olur. Bununla əlaqədar olaraq, cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti postundakı fəaliyyətinin 15 illiyi haqqında bəzi düşüncələrimi oxuculara çatdırmaq istəyirəm.

Ümumi formada qiymətləndirsək, cənab İlham Əliyev özünün 15 illik prezidentliyi dövründə, ilk növbədə, ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi daha da möhkəmlətmiş, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin etmiş, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olmuşdur. Hazırda tərəddüd etmədən söyləmək olar ki, daxili milli-vətəndaş birliyi, hakimiyyətin yürütdüyü siyasətin geniş əhali tərəfindən dəstəklənməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır. Bununla yanaşı, digər əsas daxili inkişaf parametrləri - makroiqtisadi sabitlik, dinamik inkişaf edən iqtisadiyyat, sosial və mənəvi təminat sisteminin dinamikası, müsbət demoqrafik vəziyyət, miqrasiya və urbanizasiya proseslərinin dövlətin nəzarəti altında saxlanması, dövlət idarəçiliyinin effektivliyi və s. üzrə də Azərbaycan son 15 ildə region ölkələri içərisində birinci üçlükdə öz yerini möhkəmləndirmişdir.

> *"Cənab İlham Əliyev özünün 15 illik prezidentliyi dövründə, ilk növbədə, ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi daha da möhkəmlətmiş, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin etmiş, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olmuşdur"*

İkincisi, Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət, formalaşdırdığı səmərəli dövlət idarəçiliyi sayəsində son 15 ildə Azərbaycanın regional və beynəlxalq nüfuzu getdikcə artmış, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqeləri daha da güclənmişdir. Ölkənin təbii ehtiyatlarından, coğrafi mövqeyindən, maddi, mənəvi və insan resurslarından səmərəli istifadəyə, transmilli nəqliyyat-kommunikasiya və enerji dəhlizləri sahəsində həyata keçirilən uğurlu regional siyasət və düzgün mövqe seçiminə, daxili və xarici siyasətin müstəqillik əmsalına, sosial-iqtisadi inkişafın davamlılıq və dinamiklik göstəricilərinə, gələcək inkişaf potensialına və digər parametrlərinə görə də hazırda Azərbaycan regionun özünü tam təmin edən dövlətləri sırasında ilk üçlükdə qərarlaşmışdır.

Ayrı-ayrı sahələr üzrə təhlil aparsaq görərik ki, son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirilmişdir. Məhz bunun nəticəsidir ki, hazırda ölkədə 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı (4 mindən çox qeyri-kommersiya təşkilatı), 5 mindən çox kütləvi informasiya vasitəsi, habelə sıralarında 2 milyona yaxın insanı birləşdirən həmkarlar ittifaqları sərbəst fəaliyyət göstərir.

**Ardı Səh. 3**

# On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi



**Əvvəli-Səh-3**

2012-ci ildə "Siyasi partiyalar haqqında" Qanuna edilmiş əlavələrə görə, siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsi üçün hər il dövlət büdcəsindən vəsait ayrılır. Siyasi partiyalar ölkədə azad, şəffaf və demokratik şəraitdə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində fəal iştirak edir. Bu isə Azərbaycanda siyasi plüralizmin və çoxpartiyalı demokratik siyasi sistemin formalaşdığını göstərir.

Ölkədə vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının müstəqilliyinin və maliyyə imkanlarının artırılmasına ciddi əhəmiyyət verilir. Cənab Prezidentin sərəncamları ilə 2007-ci ildə "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyası" təsdiq edilmiş, bu sahədə ixtisaslaşmış qurum kimi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradılmışdır. 2008-ci ildə fəaliyyətə başlayan Şura ictimai təşəbbüsləri dəstəkləyərək QHT-lərin minlərlə layihəsini maliyyələşdirmişdir.

Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, plüralist mətbuatın formalaşması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Prezident İlham Əliyev keçən dövr ərzində KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çoxsaylı qərarlar qəbul etmiş, müvafiq fərman və sərəncamlar imzalamışdır. Hazırda ölkədə KİV-lərin ümumi sayı 5 mini, Az.domenində qeydiyyata alınmış internet saytlarının sayı isə 20 mini ötmüşdür. 10 milyona yaxın əhalinin 80 faizi internet, 3 milyona qədəri isə sosial şəbəkə istifadəçisidir. Azərbaycanda 11 ümumrespublika, 4 peyk, 13 regional, 17 kabel, 25 internet (İP) televiziyası, 16 radio fəaliyyət göstərir. 2005-ci ildə ikinci dövlət kanalının bazasında İctimai Televiziya və Radio Yayımları Şirkəti təsis edilmiş və fəaliyyətə başlamışdır.

> *"Son 15 ildə Azərbaycanın regional və beynəlxalq nüfuzu getdikcə artmış, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqeləri daha da güclənmişdir"*

2008-ci ildə cənab Prezident "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi, 2009-cu ildə isə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında sərəncamlar imzalamışdır. İndiyə qədər Fond vasitəsilə medianın inkişafına ümumilikdə 60 milyon manat vəsait yönəldilmişdir. Bundan başqa, cənab İlham Əliyevin sərəncamlarına əsasən jurnalistlər üçün dövlət hesabına 410 mənzildən ibarət iki yaşayış binası tikilmiş və KİV nümayəndələrinin istifadəsinə verilmişdir. Hazırda 255 mənzildən ibarət üçüncü binanın tikintisi davam edir.

Prezident İlham Əliyevin hakimiyyəti illərində siyasi sferada olduğu kimi, iqtisadi sahədə də ciddi uğurlar qazanılmışdır. Onun rəhbərliyi ilə son 15 ildə həyata keçirilmiş ardıcıl və məqsədyönlü iqtisadi siyasət nəticəsində ölkədə planlı sosialist iqtisadiyyatından bazar iqtisadiyyatına keçid prosesinin başa çatması təmin edilmişdir. Bu dövrdə ÜDM-də özəl sektorun payı 80 faizi ötmüş, makroiqtisadi sabitlik möhkəmləndirilmiş, rəqabətqabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı MDB məkanında birinci yerə yüksəlmişdir. 2004-2018-ci illər ərzində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və bölgələrin davamlı yüksəlişi məqsədilə regionların sosial-iqtisadi inkişafına dair üç dövlət proqramı icra olunmuşdur. Hazırda dördüncü proqramın qəbul edilməsinə hazırlıq görülür.

Ötən dövr ərzində qeyri-neft sənayesi ardıcıl şəkildə inkişaf etdirilmiş, ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən və müasir texnologiyalara əsaslanan minlərlə yeni müəssisə fəaliyyətə başlamışdır. 2014-cü ilin dekabrında təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq, ölkə ərazisində çoxsaylı sənaye parkı və məhəllələri, texnoparklar (Sumqayıt, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Neftçala, Masallı və s.) yaradılmış, istehsal sahələrinin genişləndirilməsi, qeyri-neft sənayesinin ixrac imkanlarının artırılması və innovativ istehsalın inkişaf etdirilməsi istiqamətində ciddi tədbirlər görülmüşdür. Sumqayıtda alüminium, karbamid, plastik emalı zavodları, "SOCAR Polymer" şirkətinin polipropilen və yüksək sıxlıqlı polietilen zavodları (bu zavodlara qoyulan sərmayənin həcmi 800 milyon dollardan çoxdur), Balaxanıda məişət tullantılarının təkrar emalı zavodu, Bakı gəmiqayırma zavodu, Gəncə, Naxçıvan və Neftçalada avtomobil zavodları, Sumqayıt, Gədəbəy və Daşkəsəndə qızıl-mis emalı zavodları, Gəncə alüminium yarımfabrikatı, kənd təsərrüfatı texnikası zavodları və digər sənaye müəssisələri həmin illərdə istifadəyə verilərək ölkənin iqtisadi potensialının gücləndirilməsində mühüm rol oynayır.

Aqrar sektorda həyata keçirilən islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçılarına edilən güzəşt və yardımlar ölkə iqtisadiyyatında bu sahənin ardıcıl inkişafına zəmin yaratmışdır. 2003-2018-ci illərdə meliorasiya tədbirlərinə ayrılan vəsaitin həcmi 6 dəfə, bu sahəyə əsaslı kapital qoyuluşu 21 dəfə artmışdır. Ölkədə 4 iri su anbarı (Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay), 4 min kilometr suvarma kanalları, 2,4 min kilometr kollektor-drenaj şəbəkələri tikilmiş və bərpa olunmuş, 360 min hektar torpağın su təminatı, 264 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılmış, 219 min hektar yeni suvarılan torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılıq, taxılçılıq, baramaçılıq, üzümçülük, çayçılıq, sitrus meyvəçiliyi, çəltikçilik və arıçılığın dirçəldilməsi, fındıq, badam, xurma, zeytun, nar bağlarının genişləndirilməsi istiqamətində görülən işlər ölkənin ixrac potensialını əhəmiyyətli dərəcədə artırmışdır.

Ardı Səh. 4

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

13 oktyabr 2018-ci il

# On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi



*"Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirilmişdir"*

**Əvvəli-Səh-3**

On beş il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmışdır. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan (2004) 46 milyard dollara (2018) çatdırılmışdır. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur. Müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizini təşkil edən həmin investisiyanın təxminən yarısı daxili mənbələrin payına düşür.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilmiş, 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri (uzunluğu 1767 kilometr), 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri (uzunluğu 980 kilometr) istifadəyə verilmişdir. 2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Uzunluğu 3500 kilometr, dəyəri 40 milyard dollardan çox olan bu qlobal layihənin icrası sürətlə getmiş və 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi keçirilmişdir. TAP layihəsinin icrası isə qrafik üzrə davam etdirilir. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in ("Əsrin müqaviləsi") müddəti 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılmışdır. Yeni şərtlərə görə SOCAR-ın payının 11 faizdən 25 faizə qaldırılması, mənfəət neftinin 75 faizinin Azərbaycana verilməsi nəzərdə tutulmuşdur. Bundan əlavə, 8 il ərzində xarici investorlar tərəfindən ölkəyə bərabər hissələrlə bonus kimi 3,6 milyard dollar ödəniləcəkdir. Müqavilənin müddətinin uzadılması Azərbaycanda uzun illər bundan sonra da neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına imkan yaratmışdır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülmüşdür. Təməli 2007-ci ildə qoyulmuş Bakı-Tbilisi-Qars dəmir yolunun 2017-ci il oktyabrın 30-da Bakıda rəsmi açılışı olmuşdur. Azərbaycanın Rusiya Federasiyası, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilmişdir. 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda yeni Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşması üçün bütün işlər başa çatdırılmışdır. Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilmişdir.

Cənab İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulmuşdur. 2010-cu ildə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti yaradılmış, 2013-cü il ölkədə "İnformasiya Texnologiyaları İli" elan edilmişdir. Həmin il fevralın 8-də Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace-1", 2014-cü ildə ikinci - Yer səthini müşahidə edən "Azersky" peyki, bu ilin sentyabrında isə daha bir telekommunikasiya peyki - "Azerspace-2" orbitə çıxarılmışdır.

Son 15 ildə ölkənin sosial-mədəni və təsərrüfat infrastrukturu tamamilə yenilənmişdir. Bu dövrdə 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilmiş, yaxud əsaslı təmir edilmişdir. Yüzlərlə tarixi bina, muzey, teatr və kitabxanada geniş yenidənqurma işləri həyata keçirilmiş, ölkənin bütün ali təhsil ocaqları, həmçinin AMEA-nın nəzdində olan institut və müəssisələr təmir edilərək yeni avadanlıqla təchiz olunmuşdur. Ölkədə 15 min kilometr yol çəkilmiş, 443 körpü inşa olunmuşdur. Bakıda 4 yeni metro stansiyası istifadəyə verilmiş, bir neçə stansiyada yenidənqurma işləri aparılmışdır. Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı - Ələt Dəniz Ticarət Limanı fəaliyyətə başlamışdır. Azərbaycanda 7 hava limanı tamamilə yenidən qurularaq istifadəyə verilmişdir. Onlardan altısı (Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Qəbələ, Zaqatala) beynəlxalq hava limanı statusu almışdır. Bakının Heydər Əliyev Beynəlxalq Aeroportu dünyanın "5 ulduz"lu 9 əsas hava limanı sırasına daxil olmuşdur.

2003-2018-ci illər ərzində ölkədə ümumi generasiya gücü 2500 MVt olan 30 elektrik stansiyası tikilib istifadəyə verilmiş və Azərbaycan regionda elektrik enerjisi ixracatçısına çevrilmişdir. İlin sonuna qədər 400 meqavat gücündə daha bir elektrik stansiyası da ("Şimal-2") istifadəyə veriləcəkdir. Bölgələrdə qazlaşdırma sürətlə aparılmış və ölkə üzrə təbii qaz təchizatı 51 faizdən 95 faizə yüksəlmişdir. Nəhəng Oğuz-Qəbələ-Bakı su kəməri layihəsi icra edilmiş, Ceyranbatanda dünyanın ən böyük sutəmizləyici qurğusu inşa olunmuş, regionlarda çoxsaylı subartezian quyuları qazılmış, çaylar boyu yüzlərlə modul tipli kiçik sutəmizləyici qurğular istifadəyə verilmiş, əhalinin fasiləsiz içməli su ilə təminatı yaxşılaşdırılmışdır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə əhalinin sosial müdafiəsini gücləndirmək istiqamətində ciddi tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə vətəndaşların təbii qazdan, içməli su və kanalizasiya xidmətlərindən istifadəyə görə əvvəlki illərdə yaranmış borcları (müvafiq olaraq 327 milyon və 294,2 milyon manat) tam silinmiş, sovet dövründən qalmış əmanətlərə görə 1 milyard manat kompensasiya ödənilmişdir. 15 il ərzində ölkədə 1,9 milyon yeni iş yeri açılmış, maaşlar 5 dəfədən, pensiyalar isə 8 dəfədən çox artırılmış, işsizlik səviyyəsi 5 faizə, yoxsulluq isə 49 faizdən 5,4 faizə endirilmişdir.

**Ardı Səh. 5**

# On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi

Əvvəli-Səh-4

Cənab İlham Əliyev prezidentliyi dövründə ölkədə ictimai və sosial xidmətlər sahəsində ciddi institusional islahatlar aparmışdır. Onun müvafiq fərman və sərəncamı ilə 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi təsis edilmiş, dövlət orqanları tərəfindən əhaliyə göstərilən xidmətləri vahid sistemdə birləşdirən "ASAN xidmət" mərkəzləri yaradılmışdır. Bu mərkəzlərə 2013-2018-ci illər ərzində 24 milyona yaxın müraciət daxil olmuş, xidmətlərin əhali arasında bəyənilmə əmsalı 100 faizə yaxınlaşmışdır. Dünyada Azərbaycanın brendi kimi tanınmış "ASAN xidmət" modeli artıq başqa ölkələrdə də tətbiq edilir. Prezident İlham Əliyev 2018-ci ilin avqustunda əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlər göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"ni (DOST) yaratmışdır.

Prezident İlham Əliyev şəhid ailələri, müharibə veteranları və əlillərinə daim xüsusi qayğı ilə yanaşır. Son 15 il ərzində şəhid ailələrinə və müharibə əlillərinə dövlət hesabına 5500-dən çox fərdi ev və mənzil, 6 mindən çox minik maşını verilmişdir. İlin sonuna qədər həmin kateqoriyadan olan daha 500 nəfərin yeni mənzillərlə təmin olunacağı nəzərdə tutulmuşdur. Azərbaycan Prezidenti bu məqsədlə Prezidentin ehtiyat fondundan 20 milyon manat vəsait ayırmışdır.

2003-2018-ci illərdə məcburi köçkünlərin problemlərinin həlli sahəsində genişmiqyaslı işlər görülmüş, ölkədəki bütün çadır düşərgələri, fin tipli qəsəbələr ləğv edilmiş, yeni salınmış 100-dən artıq qəsəbə və şəhərcikdə 265 min nəfər məskunlaşdırılmışdır. 2016-cı ilin aprel ayında təhlükəsiz yaşayışı təmin olunmuş Cocuq Mərcanlı kəndi (Cəbrayıl rayonu) qısa müddət ərzində bərpa edilmiş, orada 150 evdən ibarət qəsəbə tikilmiş və köçkünlər öz doğma yurdlarına qayıtmışlar. Eyni zamanda, işğaldan azad olunmuş Şıxarx qəsəbəsində (Tərtər rayonu) 1170 ailə üçün yeni şəhərcik salınmışdır. Bu ilin doqquz ayında 2900 məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunmuşdur. İlin sonuna qədər daha 2800 ailənin ev və ya mənzillərlə təmin edilməsi nəzərdə tutulmuşdur. Təsadüfi deyil ki, ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması, habelə Minilliyin İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində böyük xidmətlərinə görə cənab İlham Əliyev 2015-ci ildə BMT-nin "Cənub-Cənub" mükafatı ilə təltif olunmuşdur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülmüşdür. 2005-ci ildə yaradılmış Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir. Beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri hazırda dünyada ən güclü 50 ordu sırasında yer tutur. 2016-cı il aprel ayının əvvəlində cəbhə xəttində Ermənistanın növbəti hərbi təxribatı ilə üzləşən ordumuz əks-hücuma keçərək işğalçılara güclü zərbələr endirmiş və qısa müddətdə Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında iki min hektar ərazini düşməndən azad etmiş, işğal altında qalan torpaqlara nəzarət etmək imkanını artırmışdır. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürülmüşdür.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi ilə bağlı prinsipial mövqe ifadə etmişdir: "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar". 2003-2018-ci illərdə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarla yanaşı, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağ münaqişəsinə dair mühüm qərarların qəbul edilməsinə nail olunmuşdur. BMT Baş Assambleyasının 60-cı (2006) və 62-ci (2008) sessiyalarının qəbul etdiyi "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələrdə zəbt olunmuş Azərbaycan ərazilərində ermənilərin məskunlaşdırılması, orada yanğınlar törədilməsi faktları pislənilmiş, BMT Təhlükəsizik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinin yerinə yetirilməsinin vacibliyi vurğulanmışdır. AŞPA-nın (1416 saylı "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə", 2005), Avropa Parlamentinin ("Avropa İttifaqının Cənubi Qafqazda strategiyasına dair tələb", 2010) qətnamələrində, Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Sammitinin Bəyannaməsində (2017) və Avropa İttifaqı - Azərbaycan "Tərəfdaşlıq Prioritetləri" razılaşmasında (2018), Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının XVI (Tehran, 2012) və XVII (Marqarita, 2016) sammitlərinin, İƏT-in XI (Seneqal, 2008) və XII (Misir, 2013) zirvə toplantılarının yekun sənədlərində, ECO-nun 13-cü sammitinin (İslamabad, 2017) yekun bəyanatında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilmiş, münaqişənin məhz bu prinsiplər əsasında həllinin vacibliyi qeyd olunmuşdur. Eyni zamanda, NATO-nun 2006-cı ildən bəri keçirilən zirvə toplantılarının, o cümlədən Nyuport (2014), Varşava (2016) və Brüssel (2018) sammitlərinin yekun kommunikelərində Cənubi Qafqazdakı münaqişələrin ölkələrin ərazi bütövlüyü, suverenliyi və Helsinki Yekun Aktına əsaslanaraq həlli prinsipinin öz əksini tapması Azərbaycanın mənafeyinə cavab verir.

Prezident İlham Əliyevin milli maraqlara söykənən xarici siyasəti nəticəsində Azərbaycan müstəqil mövqeyi ilə seçilən dövlət kimi tanınmış, onun beynəlxalq nüfuzu getdikcə yüksəlmişdir. 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmiş, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilmişdir. 2019-2022-ci illər Azərbaycan Respublikasının Hərəkata sədrlik dövrüdür. Azərbaycan Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq əlaqələri qurmuş və müvafiq sənədlər imzalamışdır.

Prezident İlham Əliyev millimənəvi dəyərlərin, dini etiqad azadlığının, konfessional və etnik rəngarəngliyin, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanmasını və inkişafını təmin etmişdir. 2003-2018-ci illər ərzində ölkədə 220-dən çox məscid, kilsə, sinaqoq tikilmiş və ya bərpa olunmuşdur. Xüsusi dinimənəvi və tarixi-mədəni əhəmiyyət kəsb edən Bibiheybət məscidziyarətgah kompleksində, Təzəpir, Əjdərbəy, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidlərində təmir və yenidənqurma işləri aparılmışdır. Şamaxı Cümə məscidi və Gəncədə "İmamzadə" dini-mədəniyyət abidəsi əsaslı bərpa edilmiş, Bakıda Qafqazın ən böyük məscidi olan Heydər Məscidi (2014), Hacı Cavad Məscidi (2018) və dağ yəhudiləri üçün sinaqoq (2011) tikilərək dindarların istifadəsinə verilmişdir. Hazırda ölkə ərazisində 2250 məscid, 14 kilsə, 7 sinaqoq sərbəst fəaliyyət göstərir. Prezident İlham Əliyevin sərəncamları ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmış (2014), 2016-cı il Azərbaycanda "Multikulturalizm İli" elan edilmişdir. Azərbaycan sivilizasiyalararası dialoq, tolerantlıq və humanitar əməkdaşlıq mövzusunda çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi etmiş, bir sıra qlobal təşəbbüslər irəli sürmüşdür. 2008-ci ildə Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin toplantısına İslam ölkələri mədəniyyət nazirləri də dəvət edilmişdir. Həmin forumda Azərbaycan Prezidenti sivilizasiyalar, xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı naminə "Bakı Prosesi" təşəbbüsü ilə çıxış etmişdir. Sonrakı illərdə bu çərçivədə çoxsaylı beynəlxalq tədbir və layihələr həyata keçirilmişdir.

Prezident İlham Əliyev gənclərin sosial, təhsil, karyera və mədəni inkişaf məsələlərinin həllini təmin etmək məqsədilə 2005-2021-ci illəri əhatə edən 3 dövlət proqramı təsdiq etmişdir. Eyni zamanda, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində minlərlə gənc xarici ölkələrin qabaqcıl tədris ocaqlarında təhsil almağa göndərilmişdir. Ölkə gənclərinin elm, təhsil, mədəniyyət və digər sahələrə yönəlmiş layihələrinin reallaşdırılmasına kömək göstərilməsi, onların fəaliyyətinin stimullaşdırılması məqsədilə 2011-ci ildə Gənclər Fondu yaradılmış, 2013-cü ildə gənclər üçün Prezident mükafatı təsis edilmişdir.

Prezident İlham Əliyevin qayğısı sayəsində ölkədə idman və bədən tərbiyəsi sahəsində sürətli inkişaf prosesi getmiş, böyük uğurlar əldə edilmişdir. Bakıda və bölgələrdə 43 Olimpiya İdman Kompleksi, xeyli sayda idman qurğuları, stadionlar və digər idman meydançaları tikilib istifadəyə verilmiş, mövcud idman obyektləri yenidən qurulmuşdur. Azərbaycan idmançıları ildən-ilə öz nəticələrini yaxşılaşdırır, yüksək nailiyyətlər əldə edirlər. İdmançılarımız 2004-cü il Afina Olimpiadasında 5 medal (1 qızıl, 4 bürünc), 2008-ci il Pekin Olimpiadasında 6 medal (1 qızıl, 1 gümüş və 4 bürünc), 2012-ci il London Olimpiadasında 10 medal (2 qızıl, 2 gümüş, 6 bürünc), 2016-cı il Rio-de-Janeyro Olimpiya Oyunlarında isə 18 medal (1 qızıl, 7 gümüş, 10 bürünc) qazanmışlar. Sonuncu Olimpiya oyunlarında qazanılmış medalların sayına görə Azərbaycan dünyada 14-cü, Avropada 7-ci, MDB ölkələri arasında 2-ci, müsəlman aləmində isə 1-ci olmuşdur.

2015-ci ildə Azərbaycan tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına ev sahibliyi etmişdir. 50 ölkəni təmsil edən 6 min idmançının iştirak etdiyi Oyunlarda komandamız ümumi hesabda 2-ci yeri tutmuş, 21-i qızıl olmaqla 56 medal qazanmışdır. 2017-ci ilin mayında Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında isə Azərbaycan komanda hesabında 1-ci yerə çıxmışdır. 2016-cı ildən etibarən Bakıda hər il ümumi auditoriyası 500 milyon nəfərdən çox olan "Formula 1" yarışları təşkil edilir.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını, çoxşaxəli islahatlar proqramını yaradıcılıqla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələsini sürətlə adlayaraq, postsovet məkanında keçid dövrünü başa vuran ilk ölkə olmuşdur. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda həyata keçirilən islahatlara yüksək qiymət vermişdir. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci, ümumi infrastrukturun inkişafına görə isə 26-cı yerdə qərarlaşmışdır (2017). Forumun "İnklüziv inkişaf indeksi" adlı illik hesabatında (2017) Azərbaycan inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəlmişdir.

Əslində, Azərbaycana gələn hər bir kəs mötəbər beynəlxalq təşkilatların hesabat və reytinqləri ilə tanış olmasa belə, təkcə paytaxt Bakı şəhərinə nəzər salmaqla son 15 ildə böyük bir sıçrayışın baş verdiyinə əmin ola bilər. Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf konsepsiyasına əsasən 2003-2018-ci illərdə həyata keçirilən abadlıq və quruculuq işləri sayəsində Bakı dünyanın ən gözəl şəhərlərindən birinə, regionun biznes və mədəniyyət mərkəzinə, cəlbedici turizm və istirahət məkanına çevrilmişdir. Şəhərin tarixi görkəmi müasir və zövqlü tikililərlə tamamlanmış, Bakının yeni simvol və rəmzləri olan Heydər Əliyev Mərkəzi, Bayraq Meydanı, "Alov qüllələri", "Baku Crystal Hall" və digər inşaat kompleksləri dünyanın memarlıq inciləri sırasına daxil olmuşdur. Şəhərin ictimai-mədəni və nəqliyyat-təsərrüfat infrastrukturu müasir tələblərə uyğunlaşdırılmış, yeni küçə, körpü və yol ötürücüləri tikilmiş, yaşıllıq və parklar salınmış, ekoloji şərait yaxşılaşdırılmış, dənizkənarı bulvar 3,5 kilometrdən 16 kilometrə qədər uzadılmışdır. Paytaxt ərazisindən çıxarılan sənaye müəssisələrinin yerində modern tipli şəhərsalma layihələri reallaşdırılmışdır.

Dövlət və cəmiyyət həyatının bütün sahələrində fundamental dəyişikliklərin baş verdiyi ötən 15 il ərzində Azərbaycan xalqı həmişə öz liderinə güvənmiş, ona ən güclü dayaq olmuşdur. Prezident İlham Əliyev respublikamızın sürətli inkişafından, qazanılan nailiyyətlərdən bəhs edərkən həmişə böyük fəxrlə bildirir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Şübhəsiz, bu cür qarşılıqlı inam şəraitində Prezident İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaqdır.

***Əli Həsənov***
***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri, professor***

# “Söz və məlumat azadlığının təmin olunması dövlət siyasətinin əsas istiqamətlərindəndir”



*“Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirilib. Məhz bunun nəticəsidir ki, hazırda ölkədə 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı (4 mindən çox qeyri-kommersiya təşkilatı), 5 mindən çox kütləvi informasiya vasitəsi, habelə sıralarında 2 milyona yaxın insanı birləşdirən həmkarlar ittifaqları sərbəst fəaliyyət göstərir”.*

SİA xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri, professor Əli Həsənovun “On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi” sərlövhəli məqaləsində əksini tapıb.

Məqalədə bildirilir ki, 2012-ci ildə “Siyasi partiyalar haqqında” Qanuna edilmiş əlavələrə görə, siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsi üçün hər il dövlət büdcəsindən vəsait ayrılır. Siyasi partiyalar ölkədə azad, şəffaf və demokratik şəraitdə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində fəal iştirak edir. Bu isə Azərbaycanda siyasi plüralizmin və çoxpartiyalı demokratik siyasi sistemin formalaşdığını göstərir. Ölkədə vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının müstəqilliyinin və maliyyə imkanlarının artırılmasına ciddi əhəmiyyət verilir. Azərbaycan Prezidentinin sərəncamları ilə 2007-ci ildə “Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyası” təsdiq edilib, bu sahədə ixtisaslaşmış qurum kimi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradılıb. 2008-ci ildə fəaliyyətə başlayan Şura ictimai təşəbbüsləri dəstəkləyərək QHT-lərin minlərlə layihəsini maliyyələşdirib.

Əli Həsənov məqaləsində qeyd edir ki, Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, plüralist mətbuatın formalaşması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Prezident İlham Əliyev keçən dövr ərzində KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çoxsaylı qərarlar qəbul edib, müvafiq fərman və sərəncamlar imzalayıb. Hazırda ölkədə KİV-lərin ümumi sayı 5 mini, Az.domenində qeydiyyata alınmış internet saytlarının sayı isə 20 mini ötüb. 10 milyona yaxın əhalinin 80 faizi internet, 3 milyona qədəri isə sosial şəbəkə istifadəçisidir. Azərbaycanda 11 ümumrespublika, 4 peyk, 13 regional, 17 kabel, 25 internet (İP) televiziyası, 16 radio fəaliyyət göstərir.

# Əbülfəs Qarayev: “Bakı mədəniyyətlərarası dialoq siyasətini dəstəkləyir”



Mərakeşin paytaxtı Rabatda Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə İslam Təşkilatının (ISESCO) 13-cü konfransı keçirilir. Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayev konfransın işində iştirak edir. Nazir TASS agentliyinə eksklüziv müsahibəsində bildirib ki, Azərbaycan mədəniyyətlərarası dialoq siyasətini hərtərəfli dəstəkləyir və həyata keçirir. Ə.Qarayev qeyd edib ki, ölkəmizin siyasəti tolerantlığa, müxtəlif milli və dini icmaların mədəni dəyərlərini anlamağa və onlara hörmət bəsləməyə yönəlib. Müsahibədə deyilir: “Azərbaycan beynəlxalq təşkilatlarla, o cümlədən ISESCO ilə əməkdaşlığa çox ciddi yanaşır və bu təşkilatın fəal iştirakçısıdır. Biz çoxlu konfranslar, “dəyirmi masa”lar keçirir, təhsil proqramlarını reallaşdırırıq. ISESCO-nun bundan əvvəlki, 12-ci Baş Konfransı 2015-ci ildə Bakıda keçirilib. Bugünkü hesabat məruzəsində və nümayəndələrin çıxışlarında qeyd edildiyi kimi, həmin konfrans uğurlu olub”.

Ə.Qarayev vurğulayıb: “Bu gün Azərbaycan ISESCO-nun Baş Konfransının sədri səlahiyyətlərini təhvil verir, lakin fəal əməkdaşlığımız, əlbəttə, davam edəcək. Biz istəyirik ki, səsimiz eşidilsin, uğurlarımız hamıya məlum olsun. Təbii ki, biz sivilizasiyaların dialoqunun, mədəniyyətlərin dialoqunun inkişafına, ümumbəşəri dəyərlər naminə İslam aləmi ilə Qərb dünyasının bir-birini daha yaxşı anlamasına yönəlmiş siyasətimizi davam etdirəcəyik”.

Onun sözlərinə görə, son üç ildə ISESCO-nun Baş Konfransına rəhbərlik edən Azərbaycan bir sıra iri tədbirlər keçirib. Nazir sözünə davam edərək deyib: “Məsələn, 2017-ci ildə Bakıda çoxsaylı iştirakçıları olan IV İslam Həmrəylik Oyunları keçirilib. Mənim fikrimcə, bu Oyunlar çox uğurlu olub”.

Ə.Qarayev vurğulayıb: “Azərbaycan mədəniyyətlərarası dialoq siyasətini də hərtərəfli dəstəkləyir və həyata keçirir. Azərbaycan Prezidenti İlham Əliyev 2008-ci ildə mədəniyyətlərarası dialoq çərçivəsində Qərb və Şərq dünyası arasında əlaqələrin həyata keçirilməsi təşəbbüsünü irəli sürüb. Biz mədəniyyətin müxtəlif sahələrini təmsil edən təşkilatları mədəniyyətlərarası dialoq üzrə ümumdünya forumunun həmtəsisçiləri kimi birləşdirməyə nail olduq. Tədbirin tərəfdaşları qismində ISESCO, Avropa Şurası, UNESCO, BMT Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı çıxış edirdi. Keçən ildən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı da tərəfdaşlara qoşulub. Bu o deməkdir ki, Azərbaycanın tolerantlığa, müxtəlif milli və dini icmaların mədəni dəyərlərini anlamağa və onlara hörmət bəsləməyə yönəlmiş siyasəti sülh işinə və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edir”.

Nazir deyib: “2009-cu ildə ISESCO-nun qərarı ilə Bakı İslam Mədəniyyəti Paytaxtı elan edildi. 2018-ci ildə isə bu fəxri ada Azərbaycanın Naxçıvan şəhəri layiq görüldü. Bu, bizim üçün böyük hadisədir və Azərbaycan mədəniyyətinin səviyyəsini, onun müxtəlifliyini bütün dünyaya göstərmək imkanı verir. İslam aləminin və Avropanın mədəni paytaxtları arasında mədəni dialoq təşəbbüsünü məhz Azərbaycan irəli sürüb. Bu, ölkələr arasında dostluq körpüləri qurmağa şərait yaradıb. Düşünürəm ki, bu, ən düzgün yoldur - mədəniyyət birləşdirməli və qovuşdurmalıdır”.

Ə.Qarayev vurğulayıb: “Azərbaycan əhalisinə tarixən xas olan dözümlülük və tolerantlıq keyfiyyətləri çoxəsrlik inkişaf dövrünü yaşayıb. Hazırda respublikada müsəlmanlar, yəhudi və xristian icmaları dinc yanaşı yaşayır, bir-birinə hörmət bəsləyir. Biz insanlar arasında ünsiyyət məkanı olan mədəniyyətlərarası dialoq forumları, sivilizasiyalararası dialoq forumlar keçiririk. Buna görə də bu gün Azərbaycan ümumbəşəri dəyərlərin birləşdiricisi rolunu öz üzərinə götürə bilər”. Nazir çıxışının sonunda deyib: “Avropa ilə Asiyanın, Qərb və Şərq dünyasının qovuşuğunda yerləşən Azərbaycan özünün sülhyaratma, vasitəçilik və sivilizasiya imkanlarını təklif edən platforma ola bilər”.

# Hikmət Hacıyev: “Ermənistan rəhbərliyinin Ermənistan-Azərbaycan münaqişəsinə insan hüquqları donu geyindirməsi cəhdləri cəfəngiyatdır”

***Ermənistan rəhbərliyinin Ermənistan-Azərbaycan münaqişəsinə insan hüquqları donu geyindirməsi cəhdləri və Azərbaycanın guya erməni əhali olmadan əraziləri tələb etməsi barədə iddiaları tamamilə əsassızdır və cəfəngiyatdır. Bu fikri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev deyib.***

Hikmət Hacıyev bildirib ki, Ermənistan BMT Nizamnaməsinə zidd olaraq, gücdən istifadə etməklə Azərbaycanın ərazilərini, o cümlədən Dağlıq Qarabağ bölgəsini və yeddi ətraf rayonu işğal edib və həmin ərazilərdə qondarma separatçı rejim yaradıb. Ermənistan Azərbaycana qarşı təcavüzünün tərkib hissəsi olaraq, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması ilə müşayiət olunan çoxsaylı hərbi cinayətlər, insanlıq əleyhinə cinayət əməlləri törədib.



İşğal edilmiş Dağlıq Qarabağın azərbaycanlı icmasına və ətraf rayonların sakinlərinə qarşı qanlı etnik təmizləmə törətməklə Ermənistan yerli azərbaycanlı əhali olmadan həmin əraziləri qanunsuz yolla ilhaq etmək kimi məqsədlər güddüyünü açıq şəkildə nümayiş etdirir. Bir milyondan artıq azərbaycanlı məcburi köçkün və qaçqının ən ümdə hüquqlarını kobud şəkildə pozduğu halda, Ermənistanın insan hüquqlarından danışması hər hansı siyasi, hüquqi və mənəvi çərçivəyə sığmır.

Bu siyasətin davamı olaraq, Ermənistan Dağlıq Qarabağın azərbaycanlı icmasının mövcudluğunu belə inkar etməyə çalışır. Həmçinin hər bir vəchlə Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmaları arasında dialoqun yaradılmasına imkan vermir.

Hikmət Hacıyev qeyd edib ki, fundamental insan hüquq və azadlıqları universal xarakter daşıyır və bütün insanlığa şamil olunaraq bərabər əsasda və ayrı-seçkilik olmadan tətbiq olunmalıdır. 1993-cü il Vyana Bəyannaməsi və Fəaliyyət Proqramında təsbit olunduğu kimi, “bütün insan hüquqları universaldır, ayrılmazdır, qarşılıqlı şəkildə asılı və bağlıdır”. İnsan hüquqları üzrə beynəlxalq sənədlərdə aydın şəkildə təsbit olunub ki, başqalarının hüquqlarının pozulması halında heç bir hüquq və azadlıq ifadə oluna bilməz.

Ermənistanın bu cür iddiaları işğal siyasətini gizlətmək, real vəziyyət barədə qeyri-həqiqi təəssürat yaratmaq və beynəlxalq ictimaiyyəti aldadaraq, münaqişənin əsasını təşkil edən Ermənistanın Azərbaycana qarşı təcavüzü və Azərbaycan ərazilərinin hərbi işğalı faktından diqqəti yayındırmaq cəhdlərindən başqa bir şey deyil.

Ermənistan başa düşməlidir ki, hərbi təcavüz və qanlı etnik təmizləmə və insan hüquqlarının kütləvi şəkildə və kobud pozulması ilə müşayiət olunan vəziyyət heç vaxt legitim qəbul oluna bilməz. Ona görə də beynəlxalq ictimaiyyət yekdilliklə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini tanıyır və dəstəkləyir. İşğalçılıq siyasətinə son qoymadan və beynəlxalq hüquqi öhdəliklərini yerinə yetirmədən Ermənistanın demokratik və sivil cəmiyyət qurmaq barədə iddiaları sözdən başqa bir şey deyil. Monoetnik dövlət olan Ermənistandan fərqli olaraq, Azərbaycan multikultural və inklüziv cəmiyyətə malik dövlətdir. Müxtəlif etnik və dini icmalar Azərbaycanda əsrlər boyu sülh şəraitində birgə yaşayırlar. Bu gün dövlət siyasəti ilə bu ənənələr daha da gücləndirilir.

Prezident Administrasiyasının rəsmisi vurğulayıb ki, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması ilə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının sülh şəraitində birgə yaşayışı üçün imkanlar yarana bilər. Nəticə etibarilə də regionda davamlı sülh, sabitlik və təhlükəsizlik təmin olunar.

# Dəmir yolu işçilərinin peşə bayramı günü qeyd olunub

*“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətində 13 oktyabr dəmir yolu işçilərinin peşə bayramı gününə həsr olunmuş təntənəli yığıncaq keçirilib. Dəmiryolçular öncə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin, görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın, Şəhidlər Xiyabanında uyuyan şəhidlərimizin məzarlarını ziyarət ediblər.*





“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, “Azərbaycan Dəmir Yolları” QSC-də keçirilən tədbirdə QSC-nin sədri Cavid Qurbanov tədbir iştirakçılarını dəmir yolu işçilərinin peşə bayramı günü münasibətilə təbrik edib. Sonra “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin bir qrup əməkdaşının ali dövlət mükafatları ilə təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar oxundu.

Cavid Qurbanov çıxışına davam edərək bildirib ki, Azərbaycanda dəmir yolunun təməli hələ 1878-ci ildə qoyulub və inşası 20 yanvar 1880-ci ildə başa çatıb. Həmin yol uzunluğu cəmi 20 kilometr olan Bakı-Suraxanı-Sabunçu dəmir yolundan ibarət idi. Həmin tarixi dövrdən başlayaraq dəmir yolu yük daşınmasına olan tələbatın artdığını nəzərə olaraq inkişaf edib və təkmilləşib.

Uzun müddət Zaqafqaziya dəmir yolunun tərkibində Bakı hissəsi kimi fəaliyyət göstərən Azərbaycan Dəmir Yolu 1955-ci il oktyabrın 3-də SSRİ Nazirlər Sovetinin 1773 saylı qərarı ilə SSRİ Yollar müstəqil dəmir yolu elan olunmuşdu. Azərbaycan SSR Nazirlər Sovetinin 13 oktyabr 1955-ci il 717 saylı qərarı ilə Azərbaycan dəmir yolu SSRİ Yollar Nazirliyinin tərkibində müstəqil dəmir yolu kimi fəaliyyətini davam etdirib. Möhtərəm Prezidentimiz İlham Əliyev dəmir yolu işçilərinin peşə bayramı gününü təsis edərkən məhz bu tarixi əsas götürüb, 2005-ci il oktyabrın 7-də “Dəmir yolu işçilərinin peşə bayramının təsis edilməsi haqqında” Sərəncam imzalayıb.

138 illik tarixə malik olan Azərbaycan polad magistralı çox əzəmətli fəaliyyət yolu keçib. İstər çar Rusiyası, istərsə də Sovet hakimiyyəti dövründə Azərbaycan dəmir yolu daima inkişafda olub və ümummilli lider Heydər Əliyevin qayğı və diqqəti sayəsində keçən əsrin 70-90-cı illərində öz tərəqqisinin zirvəsinə çatıb. 1969-2003-cü illəri Azərbaycan Dövlət Dəmir Yolunun texniki tərəqqi və hərtərəfli inkişaf dövrü adlandırmaq olar. Məhz bu illərdə istehsalatda əsas fəaliyyətlə yanaşı 14300 texniki yeniləşmə metodları tətbiq edilib və bunlar dəmir yolunun bütün sahələrini əhatə edib. Sonra bir qrup dəmiryolçuya yeni mənzillərin açarları, “Fəxri dəmiryolçu” döş nişanı və bayram hədiyyələri, təqdim olunub.

## “Azerspace-2”nin orbitdəki sınaq prosesləri başa çatdıqdan sonra peyk kommersiya fəaliyyətinə başlayacaq



“Azerspace-2”nin orbitdəki sınaq prosesləri başa çatdıqdan sonra peyk kommersiya fəaliyyətinə başlayacaq. “Azərkosmos” ASC-dən bildirilib ki, Fransız Qvianasında yerləşən kosmodromdan - Qviana Kosmik Mərkəzindən sentyabrın 26-da uğurla orbitə buraxılan “Azerspace-2” peyki ABŞ-ın “Space Systems/Loral” (SSL) şirkəti tərəfindən yüksək etibarlı “SSL 1300” peyk platforması əsasında istehsal olunub. Peyk geostasionar orbitdə 45° şərq uzunluğu orbital mövqeyində fəaliyyət göstərəcək. “Azerspace-2” peykinin orbitdə yanacaq ömrü minimum 20 il təşkil edəcək.

Yeni peykin istismarı üçün Bakıda və Naxçıvan Muxtar Respublikasında yerüstü infrastruktur yenilənib. Orbitdəki sınaq prosesləri və yekun orbital mövqeyə yerləşdirilməsi uğurla başa çatdıqdan sonra peykin idarəçiliyi istehsalçı şirkət tərəfindən “Azərkosmos” ASC-yə təhvil veriləcək ki, bundan sonra peyk kommersiya fəaliyyətinə başlamaq üçün tam hazır vəziyyətdə olacaq.

“Azerspace-2” peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək. Peyk regionda dövlət və özəl qurumlara şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbləri qarşılamaq üçün yüksək texniki imkanlar, əlverişli əhatə zonası və keyfiyyətli xidmət təklif edəcək.

## 25-26 oktyabrda VI Bakı Beynəlxalq Humanitar Forumu keçiriləcək

Mərakeş Krallığının Rabat şəhərində İSESKO Baş Konfransının 13-cü sessiyası öz işinə başlayıb. Sessiyada iştirak məqsədilə mədəniyyət naziri Əbülfəs Qarayev Mərakeşdə səfərdədir. Qeyd edək ki, ölkəmiz sessiyada təşkilatın 12-ci Baş Konfransının sədri qismində iştirak edir. Mədəniyyət Nazirliyindən verilən məlumata görə, iclasda Baş Konfransın prosedur qaydaları, 12-ci sessiyada müxtəlif məsələlərə dair qəbul edilmiş qərarların icrası, İSESKO-nun 2019-2021-ci illər üzrə üç illik fəaliyyət planı və büdcəsi, 2019-2027-ci illər üzrə orta müddətli strateji fəaliyyət planı və digər məsələlərin müzakirə edilməsi nəzərdə tutulur.

Nazir Əbülfəs Qarayev sessiyada çıxışı zamanı Azərbaycanla İSESKO arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib, ölkəmizin mədəniyyət, təhsil və elm sahələrində uğurlarını, cari ildə “Bakı Prosesi”nin 10-cu ildönümünün qeyd olunduğunu və 25-26 oktyabr 2018-ci il tarixində ölkəmizdə VI Bakı Beynəlxalq Humanitar Forumunun keçiriləcəyini qeyd edib. Nazir həmçinin ölkəmizin sədrliyi dövründə görülən işlər, keçirilən tədbirlər barədə məlumat verib. Azərbaycanın sədrliyi çərçivəsində İSESKO ilə TÜRKSOY arasında əməkdaşlıq sazişi imzalanıb. Qeyd edək ki, Azərbaycan 2015-ci ilin noyabr ayından etibarən İSESKO Baş Konfransına sədrlik edir və cari ildə ölkəmizin sədrliyi başa çatır.

## Vüqar Rəhimzadə: “ABŞ-a petisiya vasitəsilə öz etirazımızı bildirməliyik”



“ABŞ-ın Kaliforniya ştatının Qlendeyl şəhərində Meriland prospektinin adının dəyişdirilərək “Artsax” qoyulmasına görə biz rəsmi Amerika tərəfinə, eləcə də onun aidiyyatı qurumlarına öz etirazımızı bildirməliyik. Düşünürəm ki, sosial şəbəkələr vasitəsilə də bu məsələyə etiraz bildirilməlidir. Bu tamamilə ədalətsiz bir mövqedir. Heç şübhəsiz ki, burada erməni lobbisinin canfəşanlığı xüsusi rola malikdir”. Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki Sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

“Düşünürəm ki, bu məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyi və yaxud da hansısa orqan rəsmi Amerikanın aidiyyatı orqanlarına öz etirazını bildirər. Yəqin ki, bununla bağlı işlər gedir. Bizim üzərimizə düşən vəzifə isə odur ki, sosial şəbəkələrdə petisiya vasitəsilə öz etirazımızı bildirək.

Ən pisi odur ki, erməni lobbisi məhz Kaliforniya ştatında böyük nüfuza və çəkiyə malikdir. Çünki sözügedən ştatda çoxsaylı erməni yaşayır və bu səbəbdən də erməni lobbisinin əsas özəyi Kaliforniyada təmərküzləşib. Bu baxımdan hesab edirəm ki, sözügedən məsələyə son dərəcə ciddi yanaşmaq və prosesləri izləmək lazımdır. Bütün mümkün vasitələrlə bunun qarşısını almaq lazımdır. Heç cür imkan vermək olmaz ki, separatçı qurum hansısa formada təbliğ olunsun. Ermənilərin də məqsədi, zatən, təbliğat kampaniyasını genişləndirməkdir. İnformasiya siyasətlərini yalan üzərində quran ermənilər, bəzi hallarda dünya ictimaiyyətini aldada bilirlər. Ona görə də qətiyyən buna yol verməK olmaz. Hesab edirəm ki, Birləşmiş Ştatlarda fəaliyyət göstərən diaspor qurumları, o cümlədən türk diaspor təşkilatları da bunun qarşısını almaq üçün səylərini birləşdirməlidirlər. Vaşinqtonla yanaşı, Kaliforniyadakı müvafiq qurumlara müraciət olunmalı və məsələnin mahiyyəti onlara izah edilməlidir”, - deyə, baş redaktor fikirlərini tamamlayıb.

## Gəncə hadisələrinin iştirakçılarından biri Moskvada tutuldu



Azərbaycanın sorğusu əsasında axtarışda olan şəxs oktyabrın 11-də Moskvada saxlanılıb. SİA xəbər verir ki, adı hələlik açıqlanmayan şəxs barədə məlumatı Rusiya KİV-i yayıb. Bildirilir ki, onun 34 yaşı var. Terrorizm, hakimiyyətin zorla ələ keçirilməsi, dövlət əleyhinə çağırışlar və dövlət xadiminin həyatına qəsd ittihamı ilə bu ilin iyulundan axtarışda olub. Həmin şəxs Moskvanın arxitektor Vlasov küçəsində saxlanılıb. Hüquq-mühafizə orqanlarının məlumatına görə, sözügedən şəxs Gəncə hadisələri ilə əlaqədar saxlanılır. Rusiya və Azərbaycanın müvafiq orqanları saxlanılan şəxsin ekstradisiyası məsələsini həll edirlər.

# Leyla Abdullayeva: "XİN rəhbərlərinin ikitərəfli görüşü planlaşdırılır"



## Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri Leyla Abdullayevanın SİA-ya müsahibəsi:

***- Leyla xanım, Ermənistanın baş naziri bir müddət öncə BMT Baş Assambleyasının 73-cü sessiyasında etdiyi bəyanatda olduğu kimi, İrəvanda keçirilən Frankofoniya təşkilatının açılışında etdiyi çıxışında da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair yalan və həqiqətdən uzaq fikirlər səsləndirdi. Sizcə, bunun arxasında nə dayanır?***

- Ermənistan Baş naziri bir müddət öncə BMT Baş Assambleyasının 73-cü sessiyasında etdiyi bəyanatda olduğu kimi, Frankofoniya təşkilatının açılışında etdiyi çıxışında da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair yalan və həqiqətdən uzaq fikirlər səsləndirdi. Bu cür ritorika Düşənbədə baş tutmuş söhbətin ruhuna tamamilə uyğun gəlmir.

Əgər Ermənistanın baş naziri dürüst olmaq istəyirsə, o zaman onu tam ədalətli olmağa və Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ və ətraf rayonlarından zor gücünə öz evlərindən qovulmuş yüz minlərlə Azərbaycanlıların fundamental hüquqlarının pozulduğunu etiraf etməyə çağırırıq. Məqsədyönlü şəkildə erməni icmasını "Dağlıq Qarabağ xalqı" adlandıran Ermənistan baş naziri Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasına qarşı etnik təmizləmənin həyata keçirildiyinə göz yumur. Əgər Ermənistan rəhbərliyi özünü demokratik adlandırırsa və sülh şəraitinin yaradılmasından danışırsa, o zaman onlar qanunun aliliyi və demokratik dəyərlərə uyğun davranmalı və BMT Təhlükəsizlik Şurasının qətnamələrində və digər beynəlxalq təşkilatların qərarlarında tələb olunduğu kimi, didərgin düşmüş insanların öz evlərinə geri dönməsinə imkan yaratmalı və öz silahlı qüvvələrini Azərbaycanın işğal edilmiş ərazilərindən geri çəkməlidir.

Azərbaycanın ərazilərinin işğalına son qoyacaq və zor gücü ilə öz evlərindən qovulmuş Azərbaycanlıların işğal edilmiş Dağlıq Qarabağ və ətraf bölgələrdəki evlərinə və mülklərinə təhlükəsiz və ləyaqətlə geri dönməsini təmin edəcək real addımlar atılmayanadək Ermənistan rəhbərliyinin sülh danışıqları prosesinin irəli aparılmasına dair bütün bəyanatları yanız söz olaraq qalacaq.

Ermənistan öz öhdəliklərinə və beynəlxalq ictimaiyyətin mövqeyinə uyğun davranmalı, münaqişənin tezliklə sülh yolu ilə həlli və işğal edilmiş Azərbaycan ərazilərindən qoşunların qısa zamanda çıxarılması üçün nəticəyə yönəlik danışıqlarda konstruktiv şəkildə iştirak etməlidir. Yalnız bundan sonra bölgədə davamlı sülh təmin oluna bilər.

***- AFR Hökumətinin Almaniya-Ermənistan münasibətlərinə dair suala verdiyi cavab və ABŞ dövlət katibinin köməkçisinin müavini Corc Kentin Bakıda mətbuata verdiyi açıqlamasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səsləndirdiyi mövqeyə münasibətinizi bilmək istərdik.***

- Almaniya Federativ Respublikasının (AFR) Hökumətinin Almaniya Bundestaqından ona ünvanlanan suala cavabında AFR Hökumətinin Ermənistan silahlı qüvvələrinin nəzarətində yerləşən Dağlıq Qarabağ regionu və yeddi ətraf rayonu Azərbaycanın tərkib hissəsi hesab edir və AFR hökuməti qondarma "Dağlıq Qarabağ Respublikasını" tanımır. Xatırlatmaq istərdik ki, Almaniya Federal Kansleri Angela Merkel ölkəmizə səfəri çərçivəsində eyni mövqeyi səsləndirərək Ermənistan-Azərbaycan münaqişəsinin BMT-nin Təhlükəsizlik Şurasının qərarları əsasında həlli səylərini dəstəklədiklərini vurğuladı.

Həmçinin ABŞ dövlət katibinin köməkçisinin müavini Corc Kent Bakıya səfəri zamanı ABŞ-ın münaqişənin həlli ilə bağlı mövqeyini bir daha təkrar edərək, bu xüsusda münaqişənin BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsi əsasında həllinin dəstəkləndiyini bəyan etdi.

Hər iki bəyanat, beynəlxalq ictimaiyyətin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin sonuncu iclasında səsləndirdiyi kimi münaqişənin beynəlxalq hüququn norma və prinsipləri və Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həllini dəstəklədiyini bir daha təsdiq edir.

Beynəlxalq ictimaiyyətin bu sonuncu aydın mövqeyi Ermənistan rəhbərliyinə münaqişənin ən qısa zamanda dinc yolla həlli və işğal edilmiş Azərbaycan torpaqlarından silahlı qüvvələrin tez bir zamanda çıxarılmasına dair nəticələrə yönəlik danışıqlara geri dönmək və substantiv müzakirələrə başlamaqla bağlı güclü çağırışdır. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin də dəfələrlə bəyan etdikləri kimi status-kvo qəbul edilməzdir və dayanıqlı deyil.

***- Fransanın Alforvil və Valans şəhərlərinin merlərinin ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ ərazisinə səfərləri barədə nə demək istərdiniz?***

- Fransanın Alforvil və Valans şəhərlərinin merlərinin ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə səfərlərini qətiyyətlə pisləyir və bildiririk ki, bu beynəlxalq hüququn norma və prinsiplərinin, eləcə də Azərbaycan qanunvericiliyinin kobud şəkildə pozulması halıdır və Ermənistanın gücdən istifadə etməklə işğal etdiyi Azərbaycan ərazilərində yaratdığı qondarma separatçı rejimin təşviqinə xidmət edir.

Yerli özünüidarəetmə orqanlarının bu kimi təxribatçı əməlləri Fransa və Azərbaycan arasında imzalanmış sazişlərin dili və ruhu ilə, eləcə də, Fransanın milli qanunvericiliyi ilə ziddiyyət təşkil edir. Həmçinin bu kimi səfərlər, Fransanın ATƏT-in Minsk Qrupunun həmsədri qismində çıxış etdiyi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həlli prosesinə yardım etmir.

Bu xüsusda xatırladırıq ki, Fransanın xarici işlər və Avropa üzrə naziri, o cümlədən daxili işlər naziri tərəfindən 2018-ci ilin 24 may tarixində yerli özünüidarəetmə orqanlarının xarici fəaliyyətinin hüquqi çərçivəsi üzrə imzalanmış sənəd bu qurumları Fransanın beynəlxalq öhdəliklərinə hörmət etməyə çağırır və Fransa tərəfindən tanınmamış ərazi vahidlərinin separatçı qurumları ilə hər hansı şəkildə müqavilələr bağlamaq, səfərlər həyata keçirmək və birgə tədbirlər təşkil etməyi qadağan edir.

Fransa tərəfinin diqqətini Fransa Konstitusiyasının 73-cü maddəsi və yerli özünüidarəetmə qurumlarının ümumi kodeksinin L.1115-1 maddəsinə uyğun olaraq qəbul edilmiş və qüvvədə olan bu təmim sənədin məcburi xarakter daşıdığına yönəldir və onu bu sənədin müddəalarının dərhal və şərtsiz həyata keçirilməsi üçün müvafiq addımlar atmağa çağırırıq.

***- Bu ilin sonunda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü planlaşdırılır. Bu görüşdə münaqişənin həlli ilə bağlı müsbət irəliləyişlər ola bilərmi?***

- Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşü ilə əlaqədar rəsmi açıqlamamız olub. Bir müddət öncə BMT Baş Assambleyasının növbəti sessiyası çərçivəsində Nyu Yorkda baş tutmuş görüşdən dərhal sonra ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən açıqlama verildi. Bu açıqlamada da təsdiq edildi ki, həmsədrlərin yaxın zamanlarda bölgəyə səfəri planlaşdırılır. Eyni zamanda ilin sonunadək Azərbaycan və Ermənistan XİN rəhbərlərinin ikitərəfli görüşü planlaşdırılır. Biz ümid edirik ki, Ermənistan tərəfi münaqişənin dinc yolla, qısa zamanda həlli və işğal edilmiş ərazilərdən Ermənistan silahlı qüvvələrinin qısa müddətdə çıxarılmasına dair nəticəyə yönəlik danışıqlarda konstruktiv şəkildə iştirak edəcəkdir.

***Ceyhun Rasimoğlu***

## Energetika naziri: "Azərbaycandakı investisiyalar yaxşı qorunur"



Azərbaycandakı investisiyalar yaxşı qorunur və bu da investisiyaların ölkəmizə yönəlməsi üçün daha bir təşviqedici amildir. Azərbaycanda Amerika Ticarət Palatasından ("AmCham Azərbaycan") AZƏRTAC-a bildiriblər ki, bu barədə energetika naziri Pərviz Şahbazov "AmCham Azərbaycan"ın BP-nin dəstəyi ilə öz üzvləri üçün təşkil etdiyi aylıq işgüzar naharda deyib. Nazir enerji sektorunda son və gözlənilən dəyişikliklər və islahatlar, alternativ enerji və investisiya imkanları barədə danışıb.

P.Şahbazov qeyd edib ki, xarici və yerli investisiyaların böyük hissəsini təşkil edən "AmCham"ın üzvləri Azərbaycanın iqtisadi uğurlarına və inkişafına dəstək verən şirkətlərdir. Enerji sektoru ABŞ-dan, o cümlədən böyük transmilli şirkətlərdən investisiyaların cəlb edilməsi üçün ilk sahələrdən, həmçinin Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərdə olduqca mühüm əhəmiyyətə malikdir. Bu baxımdan ölkədəki investisiyalar yaxşı qorunur və bu da investisiyaların Azərbaycana yönəlməsi üçün daha bir təşviqedici amildir. P.Şahbazov daha sonra bərpa olunan enerji potensialı ilə bağlı məlumat verərək "Azəri-Çıraq-Günəşli" (AÇG) müqaviləsinin rolu və Azərbaycan iqtisadiyyatının inkişafı üçün "Cənub Qaz Dəhlizi" layihəsinin əhəmiyyətini vurğulayıb.

## SOCAR-ın prezidenti Türkiyənin energetika və təbii sərvətlər naziri ilə görüşüb

SOCAR-ın prezidenti Rövnəq Abdullayev Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz ilə görüşüb. AZƏRTAC xəbər verir ki, bu barədə "SOCAR Turkey Enerji A.Ş." (STEAŞ) məlumatı yayıb. Bildirilir ki, görüşdə SOCAR-ın prezidenti türkiyəli nazirə şirkətin bu ölkədəki investisiyaları və gələn həftə açılışı olacaq "Star" neft emalı zavodu barədə (NEZ) məlumat verib. Qeyd edək ki, SOCAR-ın 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, "Petkim" neft-kimya kompleksinin ərazisində inşa etdiyi "Star" neft emalı zavodu oktyabrın 19-da istifadəyə veriləcək. SOCAR 2008-ci ilin mayından etibarən Türkiyədəki fəaliyyətini STEAŞ adı ilə davam etdirir. STEAŞ 2023-cü ilədək Türkiyənin ən böyük sənaye şirkəti olmağı hədəfləyir.



# Milli Məclisin növbəti plenar iclası keçirilib

***Oktyabrın 12-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Oktyabrın 12-si və 16-da keçiriləcək iclasların gündəliyinə 54 məsələ daxil edilib.***

Əvvəlcə cari məsələlər müzakirə olunub. Sonra hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə sənədi ikinci oxunuşda təqdim edib. Bildirilib ki, normativ hüquqi aktların hazırlanmasında səmərəliliyin artırılması və çevikliyin təmin edilməsi məqsədi ilə qanunun 29 maddəsində kiçik dəyişiklik edilib.

Sənəd səsə qoyularaq ikinci oxunuş üçün qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Rəsmi statistika haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə sənədlərlə əlaqədar məlumat verərək qeyd edib ki, bu qanun layihələrinin hər üçü "Sahibkarlıq fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə 2017-ci il 29 dekabr tarixli qanunun tətbiqi ilə əlaqədar hazırlanıb. Komitə sədri müvafiq dəyişiklikləri diqqətə çatdırdıqdan sonra sənədlər ayrı-ayrılıqda səsə qoyularaq təsdiq olunub.

Sonra Əli Hüseynli Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini şərh edib. Diqqətə çatdırıb ki, "Cinayət Məcəlləsində dəyişikliklər edilməsi barədə 7 mart 2012-ci il tarixli Qanunla Məcəlləyə "xüsusi müsadirə" adlanan 15-1-ci və "hüquqi şəxslər barəsində tətbiq olunan cinayət-hüquqi tədbirlər" adlanan 15-2-ci fəsillər əlavə edilib, eyni zamanda, cəza növlərinin siyahısından əmlak müsadirəsi cəzası çıxarılıb. Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi barədə qanun layihəsi adıçəkilən qanuna uyğun olaraq, xüsusi müsadirə və hüquqi şəxslər barəsində tətbiq olunan cinayət-hüquqi tədbirlərin icrası mexanizmini müəyyən edir.

Hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib.

İclasda Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov "Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə" qanun layihəsi haqqında məlumat verib. Sənədi ətraflı şərh edən Valeh Ələsgərov bildirib ki, Saziş Azərbaycan Dövlət Neft Şirkəti ilə BP Eksploreyşn (Azərbaycan) Limited şirkəti arasında bu il aprelin 26-da imzalanıb. Kontrakt sahəsi Xəzər dənizi ərazisində 3197 kvadratkilometri əhatə edir. Bu ərazidə indiyə qədər kəşfiyyat işləri aparılmayıb. Sənəd səsə qoyularaq təsdiq olunub.

İclasda "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planının təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında bitki karantini və mühafizə sahəsində əməkdaşlıq haqqında" sazişlərin təsdiq edilməsi barədə, Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyaya dəyişikliklərə dair protokolların təsdiq edilməsi barədə qanun layihələri müzakirə olunub. Bu sənədlər barədə ətraflı məlumatlar dinlənilib və hər bir qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib.



Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədi təqdim edib. Qanunda edilən dəyişikliklərin mahiyyəti barədə danışan Ziyafət Əsgərov bildirib ki, sənədin preambula hissəsində "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrə" sözləri "hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarına (dövlət orqanlarının strukturuna daxil olan qurumlara)" sözləri ilə əvəz edilir. Buna uyğun olaraq, Qanunun əsas anlayışlar maddəsində "hərbi xidmət"in mənası düzəlişdən sonra "dövlət qulluğunun xüsusi növü olmaqla Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətlərdə Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin həyata keçirdikləri xidməti fəaliyyət" kimi göstərilir. Qanunun bir sıra digər müddəalarında "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələr" ifadəsinin çıxarılması nəzərdə tutulub.

Bu sənəd də müzakirələrdən sonra qəbul olunub. Sonra Əli Hüseynli Cəzaların İcrası Məcəlləsində edilən dəyişiklikləri diqqətə çatdırıb. Qeyd edib ki, dəyişikliklər "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin gücləndirilməsi barədə Azərbaycan Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası ilə əlaqədar təklif edilir. Mövcud dəyişikliklər "Cinayət-Prosessual Məcəllədə dəyişikliklər edilməsi barədə" 2017-ci il 1 dekabr tarixli Qanuna uyğunlaşdırma məqsədi ilə hazırlanıb. Ömürlük azadlıqdan məhrumetmə növündə cəzanın yüngül cəza ilə əvəz etmə və ya şərti olaraq vaxtından əvvəl azadetmə barədə müraciət rədd edildikdə, təkrar ərizəyə bir il sonra baxıla bilər.

Əli Hüseynli "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanunda nəzərdə tutulan dəyişikliklərin də "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin gücləndirilməsi barədə Azərbaycan Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası ilə əlaqədar təklif edildiyini deyib. Sonra deputatlar hər iki qanun layihəsinə münasibət bildirərək təsdiqləyiblər.

Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədi və Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib. Hər iki qanun layihəsinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin gücləndirilməsi barədə Azərbaycan Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası ilə əlaqədar təklif edildiyini söyləyib. Mövcud dəyişikliklərin "Cinayət-Prosessual Məcəllədə dəyişikliklər edilməsi barədə" 2017-ci il 1 dekabr tarixli Qanuna uyğunlaşdırma məqsədi ilə hazırlandığı vurğulanıb.

Hər iki sənəd ayrı-ayrılıqda səsə qoyularaq təsdiq edilib. Əli Hüseynli növbəti üç məsələni - Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli 421-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə sənədləri birlikdə şərh edib. Diqqətə çatdırılıb ki, hər üç sənəddəki dəyişikliklər "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin gücləndirilməsi barədə Azərbaycan Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası ilə əlaqədar təklif edilir. Dəyişikliklər "Cinayət-Prosessual Məcəllədə dəyişikliklər edilməsi barədə" 2017-ci il 1 dekabr tarixli qanuna uyğunlaşdırma məqsədi ilə hazırlanıb.

Hər üç sənəd də ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib.

Sonra Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov "Torpaq bazarı haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihəsini təqdim edib. Qeyd olunub ki, sənəd "Torpaq icarəsi haqqında" Qanunda dəyişikliklər edilməsi barədə 2018-ci il 31 may tarixli Qanuna uyğunlaşdırma məqsədi ilə hazırlanıb. Dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin icarəyə verilməsinin yeni qayda və şərtlərini müəyyən edir. Birinci oxunuş üçün təqdim edilən bu sənədlərdə edilən dəyişikliklər Qida Təhlükəsizliyi Agentliyi işçilərinin sosial müdafiəsini gücləndirmək, maddi təminatını yaxşılaşdırmaq məqsədi ilə hazırlanıb. Bu sənədlərdə edilən dəyişikliklər də Milli Məclisin deputatları tərəfindən razılıqla qarşılanıb. Sənədlər ayrı-ayrılıqda səsə qoyularaq ilk oxunuşda qəbul edilib.

"Təhsil haqqında" Qanunda dəyişikliklər edilməsi barədə sənədi ikinci oxunuşa təqdim edən elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli bildirib ki, nəzərdə tutulan dəyişikliklər Azərbaycan Prezidentinin "İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşlarına Azərbaycanda ali təhsil almaq üçün qrantların verilməsi haqqında" 2017-ci il 6 dekabr tarixli və "Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına Azərbaycanda ali təhsil almaq üçün qrantların verilməsi haqqında" 2018-ci il 10 yanvar tarixli Sərəncamlarının icrası məqsədi ilə hazırlanıb. Bu Qanuna təklif olunan dəyişikliklər də səsə qoyularaq təsdiqlənib.

Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov "Tütün və tütün məmulatı haqqında" Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsini ikinci oxunuşa təqdim edib. Qeyd edilib ki, dəyişikliyə görə sənədin 1.0.4-cü maddəsi yeni redaksiyada veriləcək. Belə ki, tütün məmulatlarının buraxılmasını bilavasitə həyata keçirən şəxs (satıcı) tütün məhsulunu istifadə edən şəxsin (alıcının) yetkinlik yaşına çatmasına şübhə etdikdə satıcı alıcıdan onun şəxsiyyətini təsdiq edən və yaşını müəyyən etməyə imkan verən sənəd tələb edə bilər.

Mədəniyyət komitəsinin sədr müavini Jalə Əliyeva ikinci oxunuşda müzakirə üçün "Televiziya və radio yayımı haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Teatr və teatr fəaliyyəti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini təqdim edib.

Qeyd olunub ki, hər üç qanunda nəzərdə tutulan dəyişikliklər "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanuna uyğunlaşdırılma məqsədi daşıyır. Nəzərdə tutulan dəyişikliklərin televiziya yayımlarında və teatr tamaşalarında tütün məmulatlarının, tütün istifadəsi prosesinin və insan sağlamlığına zərər vuran digər məhsulların reklamına məhdudiyyətlərin qoyulması ilə bağlı olduğu vurğulanıb.

Qanun layihələri səsə qoyularaq təsdiqlənib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə Vergi və Gömrük məcəllələrində dəyişikliklər edilməsi haqqında qanun layihələrini ikinci oxunuşda təqdim edib. bildirilib ki, məcəllələrdə dəyişikliklər edilməsi haqqında qanun layihələri "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli Qanununun icrası məqsədilə hazırlanıb.

Qanun layihələri səsə qoyularaq qəbul edilib. Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

***Rəfiqə Kamalqızı***

# Azərbaycan ötən dövr ərzində çox mühüm nailiyyətlər əldə edib



*Milli Məclisin deputatı Nəriman Əliyevin yap.org.az-a müsahibəsi*

***- Nəriman müəllim, Azərbaycan son 15 ildə bütün sahələrdə möhtəşəm uğurlar qazanıb, respublikamızın beynəlxalq nüfuzu daha da artıb. Ölkəmizdə ötən müddət ərzində həyata keçirilən uğurlu siyasət sayəsində əldə edilən nəticələr və nailiyyətlər barədə nə deyə bilərsiniz?***

- Bu gün Azərbaycan beynəlxalq miqyasda həm demokratik dövlət, həm özünəməxsus inkişaf modelinə malik olan ölkə, həm də etibarlı tərəfdaş kimi tanınır. Şübhəsiz ki, bu, uğurlu, müasir çağırışlara cavab verən daxili və xarici siyasət sayəsində mümkün olub. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu - inkişaf siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan ötən müddət ərzində çox mühüm nailiyyətlər əldə edilib, bütün sahələrin tərəqqisinə nail olmağı bacarıb. Heç şübhəsiz, Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə keçdiyi inkişaf yolunun ən mühüm keyfiyyətlərindən biri sabitlik və tərəqqinin paralel olmasıdır.

İnkişafın təməli kimi dəyərləndirilən sabitliyin ölkəmizdə yüksək səviyyədə qorunması uğurların bir-birini əvəzləməsinə geniş imkanlar açıb. Azərbaycan bu gün sabitlik adası kimi xarakterizə olunur, ölkəmizdə etibarlı sabitlik mühiti hökm sürür. Şübhəsiz ki, bu, davamlı iqtisadi inkişafa təkan verir və yeni uğurların əldə edilməsini şərtləndirir. Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının inkişafı davamlı və dinamik xarakter daşıyır. Son 15 ildə bütün dünya miqyasında iqtisadi baxımdan Azərbaycan qədər inkişaf edən ölkə olmayıb. Respublikada innovativ əsaslı, elm tutumlu iqtisadiyyat quruculuğu davamlı şəkildə diqqət mərkəzində saxlanılıb. Belə məqsədyönlü yanaşmanın nəticəsidir ki, 2004-cü ildən etibarən bütün dünya üzrə ÜDM istehsalının artımında ən yaxşı göstəricilərdən biri, 3 dəfədən çox olmaqla məhz Azərbaycanda qeydə alınıb. Təsadüfi deyil ki, beynəlxalq reytinq agentlikləri də Azərbaycanın sosial-iqtisadi inkişafını, bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticələrini olduqca yüksək qiymətləndirirlər. Bu yaxınlarda nüfuzlu reytinq agentlikləri öz hesabatlarında Azərbaycan iqtisadiyyatının 2018-2021-ci illərdə orta hesabla 3 faiz artacağına dair proqnozlar ifadə ediblər.

Ötən müddət ərzində qazanılmış nailiyyətlərin fonunda Azərbaycanın beynəlxalq nüfuzu da kifayət qədər artıb. Ölkəmiz beynəlxalq miqyasda müsbət imicə malikdir. Nüfuzlu, mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən, tolerant Azərbaycan həm də multikulturalizm ideyalarını uğurla təbliğ və təşviq edir, sivilizasiyalararası dialoqa mühüm töhfələr verir. Bir sözlə, həyata keçirilən uğurlu daxili və xarici siyasətin real nəticəsi kimi, müstəqil Azərbaycan inkişaf yolunda inamla irəliləyir.

***- Bu günlərdə Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirildi. Bu dövrdə əldə olunan nəticələr haqqında deyə bilərsiniz?***

- 2018-ci ilin əvvəlindən dünyada müşahidə edilən bir sıra ciddi kataklizmlərə baxmayaraq, respublikamız son 9 ayda da özünün ənənələrinə sadiq qalıb və əvvəlki illərdə yaradılan fundamental baza əsasında inkişaf tendensiyasını davam etdirib. Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında diqqətə çatdırılan statistik rəqəmlərdən də göründüyü kimi, bəhs olunan dövrdə ölkənin müsbət reallıqları daha da artıb. Təsadüfi deyil ki, Prezident İlham Əliyev iclasda söylədiyi nitqində ötən 9 ayın yekunlarını yüksək dəyərləndirib: "2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlindən qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır".

Güclü iqtisadiyyat olmadan ölkənin inkişafını təsəvvür etmək belə mümkün deyil. Xarici mənfi təsirlərə müqavimət gücünə malik iqtisadiyyat qurulması müstəqil Azərbaycanın milli gücünü artıran fundamental amil rolunda çıxış edir. Milli iqtisadiyyatımızın inkişafını təmin etmək üçün həyata keçirilən tədbirlər sırasında Prezident İlham Əliyevin meydana çıxan çağırışlara və ölkənin reallıqlarına uyğun qəbul etdiyi mühüm qərarlar, imzaladığı müvafiq Fərman və sərəncamlara əsasən ayrı-ayrı istiqamətlər üzrə həyata keçirilən islahatlar böyük aktuallıq daşıyır. Qeyd edim ki, respublikamızda qeyri-neft iqtisadiyyatının möhkəmləndirilməsinə, istehsal və ixrac imkanlarının artırılmasına hesablanan islahatlar bir-birini tamamlayır ki, bu da investisiyaların daha prioritet sahələrə istiqamətləndirilməsi baxımından çox önəmlidir. Hazırda respublikamızda dövlət başçısının imzaladığı müvafiq Fərmanla təsdiqlənən milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin uğurla icra edilməsi ölkədə reallaşdırılan islahatların səmərəliliyini daha da artırır.

Eyni zamanda, ölkədə iqtisadi islahatların davamlılığının təmin edilməsi baxımından 2018-ci ilin arxada qalan dövrü də istisna təşkil etməyib. Nazirlər Kabinetinin bəhs olunan iclasında da bildirildiyi kimi, son 9 ayda iqtisadi sahədə islahatların dərinləşməsi istiqamətində çox önəmli addımlar atılıb. Öz növbəsində ölkədə genişməzmunlu islahatların, eləcə də müxtəlif istiqamətlər üzrə qəbul edilən Dövlət proqramlarının reallaşdırılmasının uğurla təmin edilməsi milli iqtisadiyyatın genişlənməsi və müsbət göstəricilərin qazanılmasını təmin edir. Respublikamızda dövlət başçısının siyasi iradəsi əsasında aparılan islahatlar ilk növbədə qeyri-neft iqtisadiyyatının üstün inkişafının təmin edilməsinə hesablanıb. Postneft iqtisadiyyatının qurulmasına yönələn davamlı səylərin nəticəsidir ki, bütün ölkə boyu neftdənkənar sahələrdə yeni istehsal müəssisələri istifadəyə verilir.

Son doqquz ayın nəticələri ölkəmizin qarşıya qoyulan strateji hədəfə doğru inamla irəlilədiyini bir daha təsdiqləyir. Məmnunluq hissi ilə vurğulamaq istərdik ki, artıq milli iqtisadiyyatımızda özəl sektorun ümumi payı 70 faizi ötüb ki, bu da böyük nailiyyətdir. Bəhs olunan dövrdə də milli iqtisadiyyatımızda ən yaxşı inkişaf göstəriciləri məhz neftdənkənar istiqamətlərdə qeydə alınıb.

***- Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsini şərtləndirən əsas amil səmərəli və çoxşaxəli xarici siyasətin həyata keçirilməsidir. Xarici siyasət sahəsində atılan məqsədyönlü addımlar və qazanılmış uğurlarla bağlı düşüncələriniz nədən ibarətdir?***

- Azərbaycanın xarici siyasəti milli maraqlara əsaslanır və müasir çağırışlara cavab verir. Ölkəmiz dünyaya uğurla inteqrasiya edir, beynəlxalq müstəvidə mütəmadi olaraq yeni nailiyyətlər qazanır. Azərbaycan daim beynəlxalq miqyasda cərəyan edən proseslərə öz müsbət təsirini göstərməyə çalışır, qlobal müstəvidə sülhyaratma missiyalarında, terrorizmə qarşı birgə mübarizə tədbirlərində fəal iştirak edir. Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan özünün əlverişli coğrafi mövqeyindən yararlanaraq daim yeni qarşılıqlı faydalı əməkdaşlıq təşəbbüsləri irəli sürür. Bunun da məntiqi nəticəsidir ki, Azərbaycanın dostlarının və tərəfdaşlarının sayı davamlı olaraq artır, ölkəmizin dünyanın əksər dövlətləri ilə diplomatik münasibətləri, iqtisadi-ticarət əlaqələri yüksələn xətlə inkişaf edir. Bunun bariz nümunəsi respublikamızın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsidir. Bu, Azərbaycanın xarici siyasətinin nətiələrinin olduqca yüksək qiymətləndirilməsi, ölkəmizə olan böyük inam və etimadın ifadəsidir.

Azərbaycan, eyni zamanda, müxtəlif ölkələrlə çox fəal siyasi dialoqa malikdir və diplomatik fəaliyyətini uğurla davam etdirir. Elə son zamanlar müşahidə edilən proseslər də bu həqiqəti əks etdirir. Belə ki, bu yaxınlarda Almaniya kansleri Angela Merkelin Azərbaycana səfəri, Prezident İlham Əliyevin Rusiyayaya, Qırğızıstan və Xorvatiyaya, Rusiya Prezidenti Vladimir Putinin ölkəmizə səfəri zamanı əldə olunmuş nəticələr Azərbaycanın xarici siyasətinin dinamikliyini, ölkəmizin yüksək beynəlxalq nüfuza malik ölkə olduğunu, dünyada Azərbaycana hörmətlə yanaşıldığını əks etdirir. Bütün bunlar Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyinin ardıcıl olaraq möhkəmləndiyini göstərir.

***- Nəriman müəllim, regionun lider dövləti olan Azərbaycanın təşəbbüsü və liderliyi ilə mühüm enerji layihələri reallaşdırılır, eyni zamanda, ölkəmiz Avrasiyanın nəqliyyat xəritəsinə öz dəyərli töhfəsini verir...***

- Bəli, bu gün Azərbaycanın iştirakı olmadan regionda hər hansı bir layihə gerçəkləşdirilə bilməz. Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın moderatorluğu ilə regionda strateji əhəmiyyətli layihələr reallaşdırılır, yeni əməkdaşlıq platformaları yaradılır. Hazırda respublikamızın təşəbbüsü ilə Xəzər hövzəsini uzaq Adriatik dənizi, oradan isə Avropa ölkələri ilə əlaqələndirən Cənub Qaz Dəhlizi inşa olunur. İnvestisiya dəyəri 40 milyard dollardan çox olan bu layihə 7 ölkəni birləşdirir. Cənub Qaz Dəhlizinin resurs mənbəyi rolunda Azərbaycanın zəngin "Şahdəniz" yatağı çıxış edir. "Şahdəniz" qaz yatağı üzrə kontrakt 1996-cı il iyulun əvvəlində imzalanıb. Ehtiyatları 1 trilyon kubmetrdən çox qiymətləndirilən "Şahdəniz" dünyanın ən böyük qaz yataqlarından biridir. "Şahdəniz" yatağının işlənməsi, Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi, TANAP və TAP kimi seqmentlərdən ibarət olan Cənub Qaz Dəhlizinin icrasına 4 il bundan əvvəl Bakıda başlanılıb. Arxada qalan 4 il ərzində layihənin bütün seqmentləri üzrə böyük iş həcmi yerinə yetirilib. Təsdiq olunmuş 2,6 trilyon kubmetr qaz ehtiyatına malik olan Azərbaycan qaz hasilatının artırılması ilə bağlı əlavə addımlar atmaq və ixrac coğrafiyasını daha da genişləndirmək fikrindədir. İki il ərzində Azərbaycan qazı Avropa məkanına çatdırılacaq və Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə veriləcək. Azərbaycan qaz hasilatının artırılması ilə bağlı əlavə addımlar atmaq və ixrac coğrafiyasını daha da genişləndirmək fikrindədir.

Bunlarla yanaşı, Azərbaycan Avrasiyanın nəqliyyat xəritəsinə də öz dəyərli töhfəsini verir. Ölkəmizin əlverişli coğrafi mövqeyi respublikamızın istər Şərq-Qərb, istərsə də Şimal-Cənub dəhlizlərində vacib rol oynamasını şərtləndirir. Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsinin işə düşməsi Azərbaycanın beynəlxalq səviyyəli tranzit və logistika mərkəzinə çevrildiyinin əyani sübutudur. BTQ Azərbaycan, Gürcüstan və Türkiyə arasında iqtisadi-nəqliyyat əlaqələrinin daha da genişlənməsinə müsbət təsir göstərməklə yanaşı, daha geniş coğrafiyada yerləşən ölkələr üçün də böyük əməkdaşlıq imkanları açır. Bütün bunlar onu göstərir ki, Azərbaycan regionun nəqliyyat-logistika mərkəzinə çevrilib.

# ABŞ-ın "Artsax" sevgisi...

## Yaxud beynəlxalq hüquq və konvensiyalar nə deyir?

***Bu gün dünyanın bir çox aparıcı dövlətləri və nüfuzlu beynəlxalq təşkilatları Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir Ermənistanın təcavüzkar siyasəti nəticəsində torpaqlarımızın 20 faizinin işğal edildiyini təsdiq edirlər. Bunu Almaniya Bundestaqının radikal sağçı AfD fraksiyasının erməni lobbisinin sifarişi əsasında irəli sürdüyü qərəzli sorğusuna verdiyi qəti və sərt cavabında da gördük. Azərbaycanın ərazi bütövlüyünü və Qarabağın işğalı faktını tanıdığını göstərən cavabda ölkəmizin ədalətli mövqeyinə dəstək göstərildi.***

O da bəllidir ki, istər BMT, istərsə də digər nüfuzlu beynəlxalq qurumların sözügedən məsələ ilə bağlı mövqeləri, birmənalı olaraq, Azərbaycanın ərazi bütövlüyünü tanıması, işğal faktını pisləməsi ilə nümayiş olunmaqdadır. Təəssüf ki, bəzən əks hallar da baş verir və bu kimi halların arxasından birbaşa erməni lobbisinin dayanması kimsədə şübhə doğurmur. Bu baxımdan, ABŞ-ın Kaliforniya ştatının Qlendeyl şəhərində Meriland prospektinin adının dəyişdirilərək "Artsax" edilməsi qərarı da təəssüfedici və hiddətləndirici məqamlar sırasındadır.




### Hikmət Hacıyev: "Bu kimi addımı ilə ABŞ Azərbaycan xalqının gözündə və ictimai rəydə ona olan münasibətə əsaslı dərəcədə zərbə vurub"

Xatırladaq ki, bundan əvvəl ABŞ səfiri Robert Sekuta Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb və ona etiraz notası verilib. Notada Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərinin sakini olan Bako Saakyanın saxta məlumatlar təqdim edərək, Ermənistan pasportu ilə ABŞ vizası alması və ABŞ ərazisinə daxil olması, ABŞ-ın müvafiq təsisatlarında qondarma separatçı rejimi təbliğ edən və Azərbaycan ərazilərinin işğalını dəstəkləmək üçün ABŞ ərazisində maliyyə vəsaiti toplamaq məqsədi daşıyan tədbirlər keçirməsinə icazə verilməsinin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə, Azərbaycan və ABŞ arasında imzalanmış ikitərəfli sənədlərə və ABŞ-ın rəsmi mövqeyinə zidd olduğu qeyd olunub. "Bu kimi addımı ilə ABŞ Azərbaycan xalqının gözündə və ictimai rəydə ona olan münasibətə əsaslı dərəcədə zərbə vurub. ABŞ-ın bu kimi davranışına cavab olaraq, Azərbaycan Respublikası ABŞ-la münasibətlərində qarşılıqlılıq prinsipindən çıxış edəcək" deyə Prezident Administrasiyasının Xarici əlaqələr şöbəsinin rəhbərinin müavini Hikmət Hacıyev qeyd edib.

### Millət vəkili, politoloq Rasim Musabəyov: "Nə üçün bu ayrı-seçkilik həyata keçirilir?"

Qeyd edək ki, ABŞ-da rəsmi olaraq, heç kəs qondarma "Dağlıq Qarabağ Respublikası"nı və onun "prezidenti" B.Saakyanı qəbul etmir. Bununla belə, Konqres küçənin adının dəyişdirilməsi qərarını qəbul edib. Belə ki, bələdiyyə şurası bu qərarı separatçıların lideri B.Saakyanın martın 12-də ABŞ-a səfərindən sonra vermişdi. Həmin vaxt Azərbaycan bununla bağlı ABŞ-a rəsmi nota təqdim etmişdi. Milli Məclisin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin üzvü, politoloq Rasim Musabəyov da həmin ərəfədə bildirmişdi ki, Azərbaycanı narahat edən və etirazına səbəb olan B.Saakyanın ABŞ-a gəlməsidir: "Məsələ təkcə onun Konqresdə görünməsi deyil. Bu adam Ermənistan pasportu ilə gəlib, ABŞ-a daxil olub. Halbuki Krımın, Dnestryanı bölgənin, Abxaziyanın, Osetiyanın, nəinki qondarma rəhbərləri, heç sadə vətəndaşları Rusiya pasportu ilə Amerika və Avropa ölkələrinə buraxılmırlar. Nə üçün bu ayrı-seçkilik həyata keçirilir? İndi kimsə deyə bilər ki, görmədik, tanımadıq. Axı bilirsiniz ki, o, separatçı rejimin qondarma rəhbəridir. B.Saakyana, onun Ermənistan pasportuna nə üçün viza verirsiniz? Mahiyyət bundan ibarətdir".

O deyib ki, Azərbaycan tərəfi artıq məsələyə öz etirazını bildirib: "ABŞ-ın Azərbaycandakı səfirliyi bəyanat yayıb ki, "biz Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşırıq". Hörmətlə yanaşırsansa, ona viza vermə".

### Politoloq Elçin Mirzəbəyli: "ABŞ hökuməti bir sıra hüquqi prinsiplərdən və beynəlxalq konvensiyalardan çıxış edərək, bu məsələyə qarşı öz etirazlı mövqeyini qoya bilər"

"Baxmayaraq ki, ABŞ həmsədr ölkələrdən biridir, ştatların da ayrı-ayrılıqda qanunvericilik bazaları var. Bütövlükdə isə, hökumət bir sıra hüquqi prinsiplərdən və beynəlxalq konvensiyalardan çıxış edərək, bu məsələyə qarşı öz etirazlı mövqeyini qoya bilər". Bu fikirləri isə, media nümayəndələrinə Elçin Mirzəbəyli deyib. Onun sözlərinə görə, ABŞ bir dövlət olaraq, Haaqa Konvensiyasına və s. hüquqi çərçivələrə istinad edib, bənzər qərarların qüvvəyə minməməsi istiqamətində müvafiq addımlarını ata bilər: "Eyni zamanda, ABŞ-da yaşayan Azərbaycan diasporu da sözügedən məsələ ilə bağlı hərəkətə keçməli, Kaliforniyada yerləşən küçəyə "Artsax" adının verilməsinə qarşı hüquqi tələblərini irəli sürməlidir".

Yeri gəlmişkən, artıq Kaliforniya ştatının bəlli qərarına etiraz əlaməti olaraq, petisiya hazırlanıb və bu istiqamətdə imzaların toplanmasına başlanılıb.

***Rövşən RƏSULOV***

## Açıqlandı: "Gürcüstandakı prezident seçkilərində müxalifətin qələbə şansı daha çoxdur"



Gürcüstanda oktyabrın 28-də keçiriləcək prezident seçkiləri ərəfəsində ölkədə siyasi mübarizə güclənir. AZƏRTAC Gürcüstan mətbuatına istinadla xəbər verir ki, siyasi debatlar, seçicilərlə görüşlərdə səslənən fikirlər və digər proseslər namizədlərin reytinq cədvəlinə ciddi təsir göstərir. Mətbuat "Edison Research" şirkətinin ölkədə keçirdiyi sosioloji sorğunun nəticələrini dərc edib. Sorğunun nəticələrinə görə, "Vahid Milli Hərəkat" partiyasının yaratdığı "Güc birlikdədir" ictimai birliyinin namizədi Qriqol Vaşadze namizədlər arasında ən çox səs qazanıb. Respondentlərin 22 faizi Q.Vaşadzeyə səs veriblər.

İkinci yerdə 18 faizlə "Avropa Gürcüstanı" partiyasının namizədi David Bakradze dayanıb. Hakim "Gürcü arzusu-Demokratik Gürcüstan" partiyasının dəstəklədiyi müstəqil namizəd Salome Zurabişvili 15 faiz səslə üçüncü yerdədir. Parlamentin sədri İrakli Kobaxidze "Edison Research"in sorğusunu qeyri-ciddi adlandırıb və bildirib ki, bu sorğu ölkədəki siyasi güclərin real balansını əks etdirmir. Politoloq Arçil Qamzardiya isə bildirib ki, 2012-ci ildə keçirilən seçkilərdən sonra müxalifət ilk dəfədir ki, real qələbə şansı qazanıb. Onun sözlərinə görə, əgər seçkilərin ikinci turu keçirilsə, müxalifətin qələbə şansı əsaslı dərəcədə artacaq.

## İçərişəhərdə növbəti plener-"Böyük Britaniya Azərbaycan rəssamlarının gözü ilə"




Oktyabrın 14-də İçərişəhərdə açıq havada "Böyük Britaniya Azərbaycan rəssamlarının gözü ilə" adlı plener keçiriləcək. AZƏRTAC xəbər verir ki, plener Böyük Britaniyanın ölkəmizdəki səfirliyinin təşəbbüsü, Mədəniyyət Nazirliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və "Arts Council Azerbaijan" təşkilatının birgə dəstəyi ilə təşkil olunacaq. Yaşlı və gənc fırça ustalarının sənət əsərlərinin yer alacağı plener çərçivəsində Böyük Britaniyanın adət və ənənələri, mədəniyyəti, eləcə də təbiəti rəssamlar tərəfindən tablolara köçürüləcək. Tədbir iki ölkə arasında mədəni sahədə qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişafına dəstək məqsədi daşıyır.

## Gürcüstanın Azərbaycana 8 milyon dollara yaxın borcu var



Gürcüstanın Maliyyə Nazirliyi ölkənin xarici dövlət borcları barədə statistik məlumatları açıqlayıb. AZƏRTAC nazirliyə istinadla xəbər verir ki, Gürcüstanın ümumi xarici dövlət borcu 2018-ci ilin avqust ayı ilə müqayisədə 28,478 milyon ABŞ dolları azalaraq sentyabr ayında 5 milyard 140 milyon 98 min dollar olub. Bu məbləğin 5 milyard 14 milyon 525 mini hökumətin payına düşür. Hesabat dövründə Gürcüstanın Azərbaycana olan borcu 7 milyon 976 min dollar təşkil edib. Qonşu ölkənin Almaniyaya 276, 966 milyon dollar, Yaponiyaya 207, 807 milyon dollar, Fransaya 192, 976 milyon dollar, Türkiyəyə 15,297 milyon dollar, Rusiyaya 63,567 milyon dollar borcu var.

## Beynəlxalq Enerji Agentliyi: Neftin qiyməti yüksək səviyyədə qalacaq

Neftin qiyməti yüksək səviyyədə qalacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Beynəlxalq Enerji Agentliyinin (IEA) neft bazarına dair aylıq hesabatında deyilir. IEA qlobal neft tələbatına dair proqnozunu azaldıb. Agentlik bu il və 2019-cu il üçün gündəlik neft tələbatına dair proqnozunu təxminən 110 min barrel aşağı salıb.

"Qlobal bazarda neft tədarükündə kiçilmə olacaq. Ticarət müzakirələri və artan neft qiymətləri tələbatın aşağı düşməsinə təsir edən amillər sırasındadır. İran və Venesuelada azalan tədarüklə əlaqədar olaraq neftin qiyməti yüksək səviyyədə qalacaq", - deyə hesabatda bildirilir.

## "Türk Hava Yolları"nın yeni İstanbul aeroportundan Bakıya olan biletlərinin qiyməti açıqlanıb

"Türk Hava Yolları"nın yeni İstanbul aeroportundan iki aylıq kampaniya müddətində Bakıya olan biletlərin qiyməti məlum olub. AZƏRTAC "Milliyet" qəzetinə istinadla xəbər verir ki, "Türk Hava Yolları"nın yeni İstanbul aeroportundan Bakıya olan uçuşlarda hər iki istiqamətə biletlərin qiyməti ümumilikdə 99 dollar dəyərində olacaq.



Qeyd edək ki, yeni aeroportun rəsmi açılışı oktyabrın 29-da baş tutacaq və ilk ölkəxarici uçuşlar Şimali Kipr Türk Respublikasına və Azərbaycana olacaq.

# Emin Milli-erməni lobbisinin təbliğat ruporu

## Və ya "Meydan" TV adı altında ikibaşlı oyunlar

***Qərbi Avropada Azərbaycan əleyhinə fəaliyyət göstərən "mühacir" qurumlarının, eləcə də, media fəaliyyəti göstərən şəxslərin olması kimsəyə sirr deyil. Buna misal kimi, son bir neçə ildir Hollandiyada, Fransada, Almaniyada və digər ölkələrdə "siyasi mühacir" adı altında hay-haray salanları göstərmək olar. O cümlədən, Sevinc Osmanqızı, Emin Abdullayev (Milli təxəllüsü ilə-R.N.) və s. Budəfəki siyasi araşdırmamız, məhz E.Milli ilə bağlı olacaq. O kəslə ki, harda aş, orada baş rolunu alaraq, siyasi mollalıqla məşğuldur. Ancaq buna qədər daha bir faktı xatırlatmaq yerinə düşərdi. Belə ki, "Meydan" TV adlandırılan anti-Azərbaycan media qurumunun əsas maliyyə mənbələri erməni lobbisi və lobbi ilə əməkdaşlıq edən bir sıra qərəzli Avropa təşkilatlarıdır.***

Həmin təşkilatlar ki, Leyla Yunus, Xədicə İsmayıl, Emin Hüseynov, Arif Yunus kimi xəyanətkarların "hesabatları" əsasında ölkəmizə qarşı olmazın iftiralar yönəldir, "demokratiya tövsiyəsi" pərdəsi altında açıq-aşkar düşmən mövqeyindən çıxışlar edirlər. "Meydan" TV isə, məhz bu qurumların əlaltısı olmaqla yanaşı, həm də onların siyasi səhnədəki təbliğatçısı rolunu ifa edir.

**FAKT №1: Onnik Krikorian (Qriqorian) hansı səbəbdən Emin Milliyə işçi axtarıb?**

Elə isə, bir xatırlatmanı da etmək yerinə düşərdi. Hələ ötən il, bəlli olmuşdu ki, Tbilisidə məskən salan erməni jurnalist Onnik Krikorian (Qriqoryan-R.N.) özünün "tvitter" hesabında elan paylaşaraq, "Meydan" TV-yə işçi axtarıldığını bəyan etmişdi! Bəli, məhz erməni...Onun barəsində aparılan araşdırmalardan o da bəlli olub ki, Onnik Ceyms Krikorian Britaniyada doğulmuş erməni reportyoru və fotoqrafıdır. O, İngiltərənin Portsmut şəhərində anadan olub, 1998-ci ildən bu yana Ermənistan Respublikasının da rəsmi sakinidir. Belə ki, 2013-cü ildən Tbilisidə keçirilən "4M Journalism and Social Media" ("Jurnalistlik və sosial media") forumunda təşkilatçı kimi aktiv iştirak edir. Forum, Cənubi Qafqazın hər 3 ölkəsindən olan jurnalistləri bir yerə toplayır və təşkilatçılar onların tələsinə düşmüş media işçilərini özlərinə lazım olan ideyalarla təlimatlandırırlar. Verbovkalar həyata keçiriləndən sonra, onlar jurnalistləri hər hansı bir layihəni maliyyələşdirən şəbəkənin maraqlarına uyğun işlərə yönəldirlər.

Beləliklə, O.Krikorianın "Meydan" TV üçün yerləşdirdiyi elanda deyilir ki, həftədə 40 iş saatı və aylıq 1000 avro məvaciblə Tbilisidə yerləşmək şərtilə layihə meneceri axtarılır. Hər halda, gəlin razılaşaq ki, 1000 avro, özü də Gürcüstanda yaşamaq üçün heç də az pul deyil. Bu zaman belə bir sual yaranır ki, əcəba, özünü qeyri-kommersiya qurumu kimi təqdim edən "Meydan" TV verbovka etdirdiyi işçilərinə 1000 avronu haradan və necə ödəyəcək, yaxud ödəyir? Əslində, bu sualın cavabını tapmaq da çətin deyil. Sadəcə, daha da dəqiqləşdirmək üçün bildirək - Onnik Ceyms Krikorianın da bağlı olduğu və erməni lobbisinin maliyyələşdirdiyi anti-Azərbaycan şəbəkəsindən... Məsələnin bu tərəfi, demək olar ki, tam aydındır.

**FAKT № 2: ABŞ Konqresinin Helsinki Komissiyasının brifinqində AXCP, "Milli Şura" və Müsavat rəhbərliklərinin hədəfə alınması Emin Millinin hansı maraqlarını təmin edib?**




İndi isə keçək digər araşdırmalarımıza və iradlarımızı edək. Misal üçün, elə də uzaq olmayan tarixdə ABŞ Konqresinin Helsinki Komissiyasının "Azərbaycanda seçkilər və fundamental azadlıqların vəziyyəti" mövzusunda keçirdiyi brifinqi xatırlaya bilərik. Məhz orada da var-gəl edən, az qala hər konqresmenin "ağzından girib, qulağından çıxan", "Meydan" TV-nin rəhbəri Emin Milli idi. Həmin vaxt ona dəstək verən ermənipərəst konqresmenlər isə bu "şəxsi" az qala, demokratiya uğrunda "canından keçmiş canlı qurban" kimi təqdim edirdilər. Buna "sübut" kimi isə, E.Millinin 1999-2000-ci illərdə Bakıda Beynəlxalq Respublikaçılar İnstitutunda koordinator, 2002-2004-cü ildə Fridrix Ebert Fondunun Azərbaycan üzrə direktoru işləməsi, eləcə də, Avropaya köçüb "demokratiya uğrunda mübarizəsi" göstərilib. Bununla da, o, erməni lobbisinin və bu lobbi ilə əməkdaşlıq edən bir sıra amerikalı və avropalı siyasi korrupsionerlərin "ulduzuna", daha dəqiq desək, nökərinə çevrilib. Çünki bu kimi çevrələrə daxil olub, qrant qazanmaq şansını əldə etmək E.Millinin əsas hədəfi olub. Hətta buna görə, vaxtilə gecə-gündüz təbliğatlarını apardığı Əli Kərimlini, İsa Qəmbəri, Cəmil Həsənlini və sairləri işlənmiş tualet kağızı kimi bir kənara tullamazdı. Buna göstəriləcək fakt isə belədir - Massaçusets Universitetinin professoru Odri Alştadt, "Freedom Now" hüquq-müdafiə təşkilatının icraçı direktoru Maran Torner və komissiyanın siyasi müşaviri Everet Prays sözügedən brifinqə rəhbərlik etdikləri vaxt E.Milli yuxarıda adları çəkilən "ənənəvi müxalifət" liderlərini, necə deyərlər, "ağ yuyub, qara sərib". Əks halda o, müxalifəti "çürümüşlər yığnağı" adlandırıb, Vaşinqtondakı ermənipərəst havadarlarına özünü "novator müxalifətçi" kimi sırımazdı. E.Milli indi də yaxşı bilir ki, əgər Azərbaycandakı müxalifətə qarşı oyun oynamazsa, qrant gəlirlərindən məhrum ola bilər.

**FAKT № 3: Orduxan Teymurxan Emin Millinin yanında necə təqdim olunub?**

Yeri gəlmişkən, həmin brifinqdə E.Milli ilə yanaşı, artıq barəsində danılmaz faktlar ortaya çıxarılmış, "QRU" agenti və bu günün özündə də agentlik fəaliyyəti aparan Orduxan Bəbirov (Teymurxan-R.N.) da olub. Ondan soruşanda ki, bu saçı rezinli kimdir? Əlbəttə ki, "Azərbaycan demokratiyasının fədaisi, bloggeri, siyasi mühaciri, və ən nəhayət, məzlum insan" cavabı verilib. Beləliklə, E.Milli brifinqdə sualları cavablayarkən AXCP, Müsavat və "Milli Şura" rəhbərlərinin fəaliyyətlərinə ironik yanaşıb və bundan sonra məlum qrant müharibəsi elan olunub. "Müxalifətdə artıq dəyişikliklər zamanı çatıb. Başçılıq etdikləri partiyalarda şəxsiyyətə pərəstiş sistemi yaradan partiya liderləri müasir reallıqları nəzərə almalı, gənclərə yer verməlidirlər" deyə E.Milli çıxışında bildirib.

Bütün bunlardan sonra Cəmil Həsənli ilə E.Millinin sosial şəbəkə üzərindən apardıqları qrant davalarını xatırlamaq kifayət edər ki, nə yaş, nə də baş bilən bu siyasi dağarcıqlar pula görə bir-birlərini az qala sümüklərinə qədər didməyə hazırdırlar. Əbəs deyil ki, baş verənlərdən qeyzə gələn C.Həsənli E.Milliyə ən ucuz ifadələr ünvanlayaraq, bundan sonra belə bir adamı tanımayacağını deyib. Bu yerdə isə, C.Həsənli və Ə.Kərimlinin imdadına, məhz Sevinc Osmanqızı çatır. Ümumiyyətlə, bu savaş başlayar-başlamaz S.Osmanqızı dərhal "Emin Millini danışdıran qrantlardırmı?" başlıqlı video paylaşır və yazır: "Meydan" TV-nin əməkdaşları özləri belə qrantların haradan gəldiyini bilmirlər. Bu, rəhbərlik tərəfindən onlardan gizli saxlanılır. Halbuki sponsorla mətbuat qurumu arasında redaktor siyasətinə müdaxilə olmayacağına dair şərt müqavilədə öz əksini tapmalıdır. Mənbəyi gizli saxlanan qrantlarla müstəqil mətbuat orqanı qurmaq olarmı?"

Ümumilikdə götürəndə, yalnız E.Milli ermənipərəst şəbəkələrdən qrantlar qoparıb, həmin qrantları Orduxan Teymurxan, Tural Sadıqlı və sairlərlə bölüşdürmür, bu məsələdə Xədicə İsmayılın və digərlərinin də bənzər əməlləri kifayət qədərdir. Xatırlaya bilərik ki, bu gün AXCP və "Milli Şura" ilə düşmənçilik edən E.Milli ilə yanaşı, həm də X.İsmayıldır. Əbəs deyil ki, bu gün "Meydan" TV-yə cani-dildən dəstək verən də, bilavasitə X.İsmayıldır. Bütövlükdə, götürəndə isə, aparılan araşdırmalardan, ortada olan çoxsaylı faktlardan sonra artıq bütün kartlar açılıb. Bu kartların yenidən oyuna atılacağını isə gözləmək olmaz. Çünki onlar öz istifadə müddətlərini çoxdan bitiriblər.

***Rövşən NURƏDDİNOĞLU***



## Türkel və Əli - bir medalın iki üzü

**RƏFİQƏ**

***Bu gün müxalifətdə olanlar özünü "super" siyasətçi adlandırır. Elə bu yaxınlarda Əli Kərimlinin malçişka oğlu Türkel Kərimli Londonun "Savoy" otelinin ekzotik içkiləri və nadir nemətləri ilə tanınan barında əylənməklə özünü "siyasətçi" adlandırması adamda ikrah hissi oyadır. Bir tərəfə baxanda, oğul atasına oxşar, həm satqınlığı ilə, həm əxlaqsızlığı ilə, ancaq siyasətdən xəbəriniz yoxdur. Çünki siyasət böyük işdir, amma bu işdə satıb-satılmaq siyasət deyil, "siyasi ət"çilərsiniz. Sizin kimilər, türkiyəlilərin təbirincə desək, küçük adamlar sallaqxanalardan özlərinin "siyasi ət"lərini camaata sırımağa çalışanlarsınız. Belələrini, əlbəttə ki, baltalamaq lazımdır.***

Türkel də Ə.Kərimli kimi o qədər həyasız məxluqlardır ki, qrant almaq üçün satqınlıq yolu keçərək, min yerə şaqqalanmağa belə razı olacaq. Stəkanda fırtına görüntüsünü yaratmağa cəhd etməyə çalışan bu həmin T.Kərimlidir ki, satqın Xədicə İsmayılla birlikdə ABŞ Konqresinin İnsan Hüquqları Komissiyası Azərbaycanla bağlı dinləmələrdə Azərbaycanı "təmsil" edərkən, sən demə, ABŞ-da atasının "siyasəti"ni təqdim edirmiş. Gündüzlər atasının "demokratiya" haqqında yersiz iddialarını guya ABŞ-da kimlərinsə, qulağına pıçıldayan T.Kərimli axşamlar da hər cür oyundan çıxırmış. Özü də Azərbaycanın işğal edilmiş torpaqlarında yaradılmış separatçı rejimin rəhbəri Bako Saakyanın oğlu ilə.

Türkel ABŞ-da kef məclislərində iştirak edən vaxt Ə.Kərimli "Məshul" stadionunda Azərbaycan gənclərini "mübarizəyə", "vətənpərvərliyə" və "təmiz", "qürurlu" olmağa səsləyirdi: "Ey gənclər, mübarizədə fədakar olun" deyən Ə.Kərimlinin oğlu hardadır bəs? Gəncləri təxribata səsləyib, oğlunu ABŞ-da qızların qucağına atan bu adamın sözünü hansı gənc eşidə bilər ki? Sual edən də yoxdur ki, Türkel nə üçün hərbi xidmətə yollanmayıb?

Bax, bu yerlə, AXCP sədrinin xəyanət xronologiyasına nəzər salsaq, suallara açıq şəkildə cavab tapmaq olar. Ancaq insafən, sözün açığı, onun siyasi fırıldaqçılıq üsullarına şeytan da həsəd aparar.

Bu yerdə ASDP sədri Araz Əlizadənin dediklərini bir daha xatırlatmaq yerinə düşər: "AXCP tarixində Ə.Kərimli qədər pozuçuluq fəaliyyəti, Ə.Kərimli qədər Elçibəy əleyhinə gedən, bu məsələni təşkilatlanmış, mobil şəkildə təşkil edib, sonunda xəyanət yolu tutan ikinci şeytan cildinə girən iblisdir. Bu, faktdır, tarixdir. Bu, mənim şəxsi mövqeyim deyil. Bu, Ə.Kərimlinin fəaliyyətinin nəticəsi və adıdır".

Bax, budur Ə.Kərimlinin iblis xisləti və bu iblis xislətli AXCP sədrinin Türkel kimi satqını yetişir. Ancaq bu reallığı anlamaq lazımdır ki, satqınçılıq və xəyanət "siyasət" deyil və onun ömrü az olur.

# Ermənistanda faşizm paşizimlə əvəzləndi

*Yeni hakimiyyət tərəfindən müstəqil media ilə yanaşı, sosial mediaya da qarşı ardıcıl hücumlara start verilib*



Bir sıra erməni siyasi ekspertlərinin də, iddia etdikləri kimi, ölkədə növbədənkənar seçkilərin keçirilməsi məsələsi ətrafında yaranmış ikitirəlik, əsasən, baş nazir Nikol Paşinyana qarşı köhnə sistem komandası tərəfindən başladılan əks-hücumlar siyasi böhranın həll edilmədiyini göstərir. Əsasən, Robert Koçaryan-Serj Sarkisyan cütlüyünə yaxınlıqları ilə seçilən media qurumlarının fəallıqlarını artırmaları sözügedən vəziyyəti daha da qızışdırır. Buna misal olaraq, Nikol Paşinyana məxsus qoluzorluların, bir müddət öncə, internet televiziyasının baş redaktoru Samvel Mayrapetyana etikləri hücumu göstərmək olar. Xatırladaq ki, Robert Koçaryanla bağlı müsahibənin işıqlandırılması səbəbindən, avadanlıqları və texniki cihazları müsadirə edilən baş redaktor hazırda da müşahidə altındadır və ona şifahi şəkildə mövcud hökumətə qarşı hər hansı bir material hazırlamamaq tövsiyə edilib. Məhz bu amilləri nəzərə alan ekseprtlər, Nikol Paşinyanın “demokratik lider” pərdəsi altında əsl avtoritar və diktator rejimi formalaşdırdığını iddia edirlər. Baxmayaraq ki, Paşinyanın özü də jurnalist cameəsinin nümayəndəsidir, hazırda onun keçmiş məsləkdaşlarına qarşı sərt mövqe ortaya qoyması erməni jurnalistlərinin ona olan nifrətlərini açıq-aydın üzə çıxarmaqdadır.

### “Adekvad” verlişinin aparıcısını və operatorunu 800 nəfər linç etmək istəyib

Yeri gəlmişkən, artıq növbəti bənzər hal sosial şəbəkə üzərindən yayımlanan “Adekvad” kanalının aparıcıları və blogerləri Narek Malyanla Artur Danielyana qarşı törədilib. “Aysor.am”a istinadən xəbər verilir ki, oktyabrın 11-də saat 16:50 radələrində Ani vilayətinin Maralik şəhərində jurnalistlərə qarşı hücum halı qeydə alınıb. Belə ki, Şaqinyan küçəsində adları çəkilən şəxslərə qarşı zor tətbiq edilib və mülki şəxslər tərəfindən başladılan hücum nəticəsində onlara məxsus kamera və texniki avadanlıqlar sındırılaraq, sıradan çıxarılıb. Məsələyə polis qatılıb və onlar bölməyə aparılaraq, ifadə veriblər. Verilən ifadələrdən sonra məlum olub ki, blogger və jurnalist facebookda “Adekvad” analitik verlişini yayımlamaqdan ötrü şəhərin “Qələbə” parkına gediblər. Məhz orada onlara bir neçə nəfər yaxınlaşaraq, dərhal şəhəri tərk etmələrini tələb ediblər. Əks halda, onlara mərkəzi meydanda 800 nəfərin gözü qarşısında linç ediləcəkləri ultimatumu veriblər.



Maraqlıdır ki, polisin gözü qarşısında aparıcı və çəkiliş operatoruna qarşı qanunsuz əməllərə yol verilib və hətta təhqir edilən şəxslərin həyatlarına təhlükə yaradacaq addımlara da yol verilib. Hüquq-mühafizə orqanları isə bu kimi halın qarşısını, sadəcə, sözlərlə almağa çalışıblar.

### Aparıcı Narek Malyan: “”Mən baş verənləri faşizm də deyil, paşizm adlandırardım”

Artıq hadisə ilə bağlı “Adekvad” verlişinin aparıcısı və operatoru mətbuat konfransı keçirərək, hadisənin sifariş olduğunu, eləcə də hakimiyyət tərəfindən törədildiyini bildiriblər. “Bu hadisə hakimiyyət tərəfindən törədilib və açıq-aşkar faşizimdir” deyə Narek Malyanla Artur Danielyan bildiriblər.

Lakin sonradan öz sözlərinə daha dəqiq düzəliş verən Narek Malyan mətbuat konfransında faşizmi kreativ şəkildə “paşism” ifadəsi ilə əvəzləyərək, bunu Paşinyanın soyadının ilk üç hərfi ilə əlaqələndirib: “Mən baş verənləri faşizm də deyil, paşizm adlandırardım”.

### Artur Danielyan: “Hakimiyyət bizi susdurmaq üçün bu addıma getdi, çünki biz, bu hakimiyyətin əsas tənqidçilərindənik”

Hücuma məruz qalmış aparıcı və blogger bildiriblər ki, onlara qarşı hücum edənlər Maralik sakinləri olduqlarını bildiriblər, lakin onların maralikli olmalarını sübut edən heç bir fakt yoxdur. “Maralik sakinləri çox adekvat insanlardırlar, biz onlarla nərd oynadıq, həyatdan danışdıq, Qorbaçovdan başlayıb, Nikol Paşinyana qədər söhbət etdik” deyə qeyd edən zərərçəkmişlər, həmçinin, bildiriblər ki, onların hərəkətlərinə, söz və ifadə azadlıqlarına qarşı edilən hərəkətlər, faktiki olaraq, bu amillərin qarşısını almağa yönəlmiş kobud qanunsuzluqdur. “Hakimiyyət bizi susdurmaq üçün bu addıma getdi, çünki biz, bu hakimiyyətin əsas tənqidçilərindənik” deyə mətbuat konfransında bildirilib.

Beləliklə, fakt budur ki, artıq Ermənistanda demokratiyanın boğulması, söz və ifadə azadlığının qarşısının istənilən vəziyyətdə alınması adi hala çevrilməyə başlayıb və bu, hələ başlanğıcdır. Qarşıda isə Ermənistanı və erməni xalqını daha acınacaqlı, dözülməsi mümkün olmayan həyat gözləyir. Bunlar isə, sadəcə, başlanğıcdır...

***Rövşən RƏSULOV***

## DİN: Axtarışda olduğuna görə 33 nəfər saxlanılıb

Respublikanın daxili işlər orqanları tərəfindən ötən gün qeydə alınmış 119 cinayət faktından 19-nun üstü “isti izlər”lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış 22 cinayətin açılması təmin olunub.



Axtarışda olduğuna görə ümumilikdə 33 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 1 nəfər, borclu şəxs qismində axtarılan 21 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında baş vermiş 8 yol-nəqliyyat hadisəsi nəticəsində 3 nəfər ölüb, 15 nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 10, qanunsuz saxlanılan silah-sursatla bağlı 1 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 28 nəfər saxlanılıb.



**Təhmasib Novruzov**

## *Gülməşəkərlərin gülməli şakərləri*

***Bizim dilimizdə “gülməşəkər” deyilən bir söz var. Çox mürəkkəb sözlərimizdə olduğu kimi, bu sözümüzün də birləşdiyi sadə sözlərlə hərfi mənası uyğun gəlmir. Yəni gülməklə şəkərin nə əlaqəsi? Əvvəl-əvvəl bu söz ərköyün balalara deyilirdi. Amma sonra balalarla birlikdə bu söz də böyüdü və iş o yerə çatdı ki, XX əsrin əvvəllərində yazarlarımız bu sözü özlərinə təxəllüs götürdülər. Məqsədim bu sözün etimoloji mənasını təhlil etmək deyil.***

Məsələnin bu tərəfi dilçi-alimlərimizin tədqiqat sahəsidir və mənim də onların işlərinə müdaxilə etmək fikrim yoxdur. Məni maraqlandıran məsələnin o tərəfidir ki, bizim başa düşdüyümüz mənada, gülməşəkərlik indiki böyüklərə bir az qəribə təsir bağışlayır elə bil. Gülməşəkər, yəni ərköyün hansı balalara deyirlər? İstədiyini almasa əl çəkməyən, gücü çatdı-çatmadı, hamıya əl-qol atan, hər yükün altına girməyə can atan, əl-qol atması onun istədiyi reaksiyanı verməyəndə, ağlayıb şivən qoparan və buna bənzər digər hərəkətləri ilə diqqət çəkən azyaşlı uşaqlarımızı belə adlandırırıq.Belədə həmin hərəkətləri eynilə təkrarlayan böyüklərimizə də gülməşəkər deməyin bir qəbahəti olmasın gərək. Sadəcə, burda, Fələkətin sözü olmasın, bir hərif söhbəti var. O da ibarətdi ondan ki, bu böyüklərin belə hərəkətləri şakərlə (yəni xislətlə) bağlıdır. Özü də elə-belə şakərlə yox, gülməli (oxu:gülünc) şakərlə. Otuz il əvvəl cavan idilər, qanmadılar, girdilər meydana ki, hamı sakit olsun, Qarabağ məsələsini biz həll edəciyik. Əcəb! Millət də onların istədiklərinin hamısını verdi ki, təki Qarabağ məsələsi həll olunsun, hayların arzuları gözlərində qalsın. Onlar da gülməşəkərlik edib, gördülər ki, nə istəsələr alırlar, üz tutdular millətə ki, məsələni həll eləmək üçün bizə hakimiyyət verin. Sadə, fağır millət onların bu istklərin də yerinə yetirdi. Sanki körpə uşaq minib çapmaq üçün at istədi, gətirib verdilər, sonra da at onu götürüb yerə elə vurdu ki, bir də ömür boyu at görəndə yan qaçmağa məcbur oldu. Yəni dediyim odur ki, balaca olanda noolar, o körpə qandı ki, at minmək, at çapmaq onluq deyil və bir də bu sevdaya düşməkdən vaz keçdi. Amma bizim gülməli şakərlilərimizin bir körpə qədər də ağlı yoxmuş. Bu boyda məmləkətin idarə atına mindirdi onları bu millət və at fınxırıb şahə qalxdı, sürətlə surətləri dəyişdi, qaçan qaçdı, qaçmayan da xəcalətində küncdə - bucaqda gizləndi. Elə ki, millətə yiyə çıxan tapıldı, onların yəhərlədiyi hakimiyyət atının “yüyən-yəhər”ini dəyişdirib, düşdüyü çala-çuxurdan çıxardı, rahat yola gətirdi və bu “at” ağlı başında başladı yolunu getməyə, həmin o zatlar, yəni gülməli şakərlilər yenə başladılar “qatıq” işlərini təkrarlamağa. Qatıq satmadılar ey, sadəcə, qatıq kimi turşumuş əməllərinə yenidən başladılar. İvandan, Corcdan-zaddan da bir-iki cibidolu əmi-dayı tapdılar və yenə üz tutdular millətə ki, bizi gətirin hakimiyyətə, həm sizi süd gölünə dolduraq, “bəs” deyincə için, həm Qarabağı haylardan alıb, qaytaraq millətə! Bax, ona görə deyirəm ki, uşaqların gülməşəkərliyinə şükür, böyüklərin gülməli şakərləri çox həyasız olurmuş. Yəqin düşünürlər ki, bir kərə mindik, at bizi qəbul eləmədi, indi arpadan-buğdadan verərik, bizi yerə çırpmaz. Amma unudurlar ki, at çox vəfalı və çox da kinli məxluqdur. Kimi bir dəfə yerə vurdusa, ikinci dəfə ona yaxınlaşsa təpiyinin altına salıb, xıncım-xıncım edər. Odur ki, bunlara məsləhət görürük şakərlərində bir az dəyişiklik etsinlər. Yoxsa onları yerə çırpan hakimiyyət atı bu dəfə onlara bir turp eşər ki, uşaqlıqdakı gülməşəkərliklərini də yadlarından çıxararlar. Deməsi bizdən, yozması oxuculardan. Kimlərdi bu gülməli şakərlilər?

# Sonu başa çatmayan Müsavat-AXCP qarşıdurması

***AXCP ilə Müsavat arasında uzun illərin davasının nə zamansa başa çatacağı kimsəyə inandırıcı görünmür. Çünki hər iki iddialı partiya sədrlərinin reallaşdıra bilmədikləri iddiaları buna imkan vermir və bu gün "Milli Şura" daxilində iki partiya arasında yaşanan ixtilaflar da ilk deyil. Bu, bir daha sübut edir ki, onlarda ümumi maraqlar deyil, şəxsi maraqlar hər şeydən üstün olduğuna görə həmin partiyalar arasında davamlı gərginlik yaşanır.***

Beləliklə, aydın olur ki, AXCP və Müsavat partiyaları arasında qarşıdurmalar davam edir və bunda sonra da davam edəcək və bu baxımdan da, yuxarıda dediyimiz kimi, bu qaşıdurmanın nə vaxtsa başa çatacağı inadırıcı deyil. Çünki bu ənənəvi qarşıdurmaların bünövrəsi hələ "Yurd" qrupunun daxilindən qaynaqlanaraq, bu günə qədər gəlib çatıb. AXC-nin tərkibində yaradılan "Yurd"a rəhbərlik edən Əli Kərimlinin əsas məqsədi də Əbülfəz Elçibəyin siyasi arenadan kənarlaşdırılması və cəbhənin sükanı arxasına keçməsi ilə bağlı olub. Ən ziddiyyətli məqam isə 2013-cü ildə Müsavat partiyasının "Milli Şura"dan çıxandan sonra olub. Elə o vaxtdan da söyüş, təhqirlər dalğası iki təşkilatın aşkar sifətlərini ortaya qoyub. Ə.Kərimli feysbukda "söyüş qrupu" da təşkil edərək, başladı, nə başladı. Nəticədə, Müsavat tərəfi də moratoriumu çox saxlaya bilmədi və yenidən ara qarışdı. Beləliklə, bu gün vəziyyət daha da dərinləşməkdədir.

### Müsavat və AXCP-nin çözülməyən sarəsiz xəstəliyi

ADP sədrinin müavini Taliyət Əliyev sözügedən məsələyə münasibət bildirərəkən deyib ki, bu iki partiya arasındakı münasibətlərin kökü hakimiyyətdə olduqları dönəmdən başlayır və bu günə kimi də davam edir. "Hesab edirəm ki, bu münasibətlərin motivində qrup maraqları dayanır. Bu, təkcə iki partiya arasındakı münasibətlərə deyil, ümumilikdə, müxalifətdaxili münasibətlərə də mənfi təsir göstərir. Nəticə etibarı ilə cəmiyyətin müxalifət partiyalarının ətrafında birləşməsinin qarşısını alır. Hesab edirəm ki, bu məsələ təkcə AXCP-Müsavat məsələsi deyil, ümumilikdə, siyasi institutlarda siyasi mədəniyyətin hələ də formalaşmamasından irəli gəlir. Əks-fikrə dözümsüzlük, məqam olan kimi, öz müttəfiqini qaralamaq, siyasi etikaya və əxlaq normalarına riayət etmədən onu təhqir etmək və s. hallar günümüzün reallığıdır".

### "AXCP-Müsavat qarşıdurması bu partiyaların gücsüzlüyünü göstərir"

Sözügedən məsələyə münasibət bildirərkən, Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu AXCP-Müsavt arasında baş verən qarşıdurmanın mənasız olduğuqnu bildirərək, vurğulayıb ki, hər iki partiya özünü güclü saysa da, keçirdikləri aksiya və mitinqlərdə onların nə qədər zəif olduğunu sübut edir. Partiya sədri hesab edir ki, uğursuzluqların qabaqcadan bildikləri üçün ölkədə keçiridləcək hər nası seçkini ya boykot etmək çağırışı edirlərə, ya aksiya və mitinqlər keçirməklə özlərini nümayiş etdirirlər: "Bu, yalnış addımdır: seçki demokratik prossesdir, konstitusion normadır. Heç kim bu normaya qarşı çıxış edə bilməz. Konstitusiyanın 70-ci maddəsində qeyd olunur ki, hansısa ad altında vətəndaşların hüquqlarının məhdudlaşdırılması yolverilməzdir. Ona görə də, siyasi baxımdan vətəndaşları seçkilərdən yayındırmağa çalışmaq, dövlətin və cəmiyyətin həyatında iştirakdan çəkindirməyə cəhd konstitusion normanın pozulmasıdır. Bu qarşıdurmalarla özləri üçün yaratdıqları torda ilişib qalacaqlar, qərarları öz əleyhlərinə işləyəcək. Ona görə də Azərbaycanda artıq yeni müxalifətçilik olmalıdır".

Beləliklə, AXCP ilə Müsavat arasında yenidən başlayan qarşıdurma növbəti mərhələyə keçid alıb. Bu isə dağıdıcı müxalifətin fiasko tendensiyasının reallaşmasına yetərincə təkan verəcək.

**Rəfiqə HÜSEYNOVA**

# Azər Həsrət: "Ac qalan erməni xalqı bir müddət sonra dözməyəcək"



Müsahibimiz siyasi şərhçi Azər Həsrətdir

**- Azər müəllim, Paşinyan baş nazir postundan istefa verib seçkilərə qatılmaqla, öz siyasi maraqlarını təmin edə biləcəkmi?**

- Bəli, onun siyasi iddiaları var və bunun üçün çalışır. Bu şəxs özünü demokratik, qanunlara sayğılı birisi kimi göstərməyə çalışır. Ona görə də, belə adi məsələlərlə manipulyasiya etməkdən çəkinmir. Təbii ki, onun belə addımları, təhlil qabiliyyəti çox da yüksək olmayan, siyasi proseslərin məğzini anlamaqda çətinlik çəkən kütləyə hesablanmış manipulyasiyadır. Bu gedişlərlə kütlənin ona verdiyi dəstəyi davam etdirmək istəyir. Yaqin ki, qarşıdakı seçkidə bunu təmin edə biləcək. Amma sonrakı proseslərdə onun işi xeyli çətin olacaq. Çünki ac qalan erməni xalqı, bir müddət sonra, dözməyəcək və Paşinyan acı gerçəkliklərlə üzləşməli olacaq.

**- Sizcə, hələ də hakimiyyətə iddialı olan Koçaryan və Sarkisyan Paşinyanın asanlıqla iddialarını kerçəkləşdirməsinə seyriçi qalacaqlarmı?**

- Əlbəttə ki, onların hər ikisi revanş üçün yanıb-yaxılırlar. Ona görə də, ötən müddət ərzində. boş durmayıblar. İndinin özündə də, seçki üçün səfərbər olunmaqdadırlar. Lakin bir məsələ var ki, Moskva hansı qərarı verəcək? Əgər Moskva Paşinyanın üzərindən xətt çəksə, Koçaryan və Sarkisyan yenidən meydana qayıda bilərlər. Yox, bu olmasa, Paşinyan bir müddət də meydanda qalacaq. Sonrakı proseslərin necə olacağını deməyə isə hələ tələsməyək. Gözlənilməz hadisələr baş verə bilər. Hətta Qarabağ cəbhəsində intensiv hərbi əməliyyatlar da bərpa edilə bilər.

**- Siyasi böhran Ermənistanda növbəti vətəndaş qarşıdurmasına gətirib çıxara bilərmi?**

- Bu, mütləq mümkündür. Çünki az öncə də, qeyd etdiyim kimi, erməni xalqı acdır. Bu insanları ən çox düşündürən məsələ daxili güvənlik və gündəlik yeməkdir. Paşinyanınsa ölkəsinin məhdud resurslarıyla bunu təmin etməsi hələ uzun müddət mümkünsüz görünür. Üstəlik də, blokada şəraiti davam edir. Ona görə də, sadə erməni xalqı bir müddət də dözdükdən sonra Paşinyandan çörək tələb edəcək. O isə, çörək verə bilməyəcəyi üçün, xalqla arası açılacaq və Ermənistan daha dərin uçuruma yuvarlanacaq.

**GÜLYANƏ**

# Naxçıvan Muxtar Respublikasında təhsil alan 5 tələbə "Nar"-dan təqaüd alacaq



Elm və təhsilin inkişafına dəstəyi ilə seçilən "Nar"-ın Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrində elan etdiyi Təqaüd proqramının nəticələri məlum oldu. Beləki, informasiya texnologiyaları və informatika ixtisasları üzrə təhsil alan, xüsusi fərqlənən və təhsildə yaxşı nəticələr göstərən 5 tələbə "Nar" tərəfindən 200 AZN məbləğində aylıq təqaüd alacaq.

2018-2019-cu tədris ilində təqaüd alacaq tələbələr aşağıdakılardır:

**1.** Seyidova Aytən Rəsul qızı, Naxçıvan Dövlət Universiteti, İnformasiya Texnologiyaları ixtisası, 3-cü kurs

**2.** Hüseynli İnci İsgəndər qızı, Naxçıvan Dövlət Universiteti, İnformasiya Texnologiyaları ixtisası, 3-cü kurs

**3.** Mahmudova Aytac Rəsul qızı, Naxçıvan Dövlət Universiteti, İnformasiya Texnologiyaları ixtisası, 2-ci kurs,

**4.** Qəhrəmanova Sevil Qəhrəman qızı, Naxçıvan Universiteti, Riyaziyyat və informasiya ixtisası, 3-cü kurs

**5.** Qəmbərov Allahqulu Zəfər oğlu, Naxçıvan Universiteti, Riyaziyyat və informasiya ixtisası, 4-cü kurs

Təqaüd proqramının qalibləri ilə görüşündə "Azerfon"un mətbuat xidmətinin rəhbəri Əziz Axundov onlara uğurlar arzulayıb və bildirib ki, təhsil və maariflənmənin inkişafı "Nar"-ın xüsusi önəm verdiyi sahələrdən biridir: ""Bu təşəbbüsümüzün tələbələrə yeni bilik və bacarıqları əldə etmələri və gələcəkdə uğurlu karyera qurmalarına dəstək olacağına əminəm. "Nar"-ın təqaüd proqramı növbəti illərdə də davam edəcək".

Təqaüd proqramı, ilkin olaraq, Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrində təhsil alan tələbələr üçün nəzərdə tutulub. Gələcəkdə digər bölgələr və paytaxt Bakı universitetlərinin tələbələri üçün də aylıq təqaüdün verilməsi planlaşdırılır.

Qeyd edək ki, tələbələr üçün təqaüd proqramının elan edilməsi "Nar"-ın korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində reallaşıb. "Nar"-ın KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək mümkündür.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Bakcell Enerji və İKT üzrə Alman-Azərbaycan biznes-forumunun keçirilməsinə dəstək göstərdi

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell oktyabrın 9-da Bakıda keçirilmiş Azərbaycanda Enerji və İKT üzrə Alman-Azərbaycan biznes-forumunun sponsoru olub. Forum Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan) tərəfindən Almaniyanın Şərq Komitəsi və Şərqi Avropa İqtisadi Birliyi (Ost-Ausschuss - Osteuropaverein der Deutschen Wirtschaft e.V.) ilə əməkdaşlıq çərçivəsində təşkil olunub. Bu ilki tədbirin əsas mövzuları enerji və İKT sektorunda islahatlar və tərəfdaşlıq üçün perspektivlər təşkil edib. Forumun əsas məqsədi Alman şirkətləri və onların Azərbaycanlı tərəfdaşlarının Enerji və İKT sahələri üzrə layihə və təkliflərini təqdim etmək və işgüzar əməkdaşlıq üçün mövcud imkanları müəyyən etmək olub.




Tədbirdə Azərbaycan hökumətinin rəsmiləri, yerli biznes mühitinin yüksək vəzifəli nümayəndələri, Almaniyanın Azərbaycandakı Səfirliyinin və aparıcı alman şirkətlərinin nümayəndələri iştirak edib. Qonaqlar enerji sektorunda innovasiyalar və iqtisadi islahatlar sahəsində İKT-nin hərəkətverici qüvvəsi barədə panel müzakirələrində iştirak edib. Qeyd edək ki, Alman-Azərbaycan Xarici Ticarət Palatasının 2018-ci ildən üzvü olan Bakcell şirkəti palatanın əməkdaşlıq və partnyorluq münasibətlərinin stimullaşdırılması və həmçinin Azərbaycanda ümumi biznes mühitinin inkişaf etdirilməsi sahəsində təşkil etdiyi tədbir və təşəbbüslərinə fəal şəkildə dəstək göstərir.

Artıq 20 ildən çoxdur ki Azərbaycanda fəaliyyət göstərən Bakcell şirkəti hazırda müxtəlif sahələri təmsil edən 3500-dən artıq korporativ müştəriyə xidmət edir. Bakcell ölkə iqtisadiyyatının bir çox sektoru üzrə ən böyük korporativ telekommunikasiya xidmətlərinin təminatçısıdır. Şirkət Azərbaycanda fəaliyyət göstərən yerli və beynəlxalq şirkətləri ən yüksək keyfiyyətli telekommunikasiya həlləri ilə təmin edir. "Bakcell"in peşəkar komandası şirkətlərə, dövlət qurumlarına və digər təşkilatlara mobil telekommunikasiya sahəsində istənilən növ xidməti göstərməyə hazırdır. Bakcell özünün korporativ abunəçilərinə təhlükəsiz və etibarlı rabitə təqdim etməklə daha effektiv fəaliyyət göstərməkdə, müştəriləri ilə əməkdaşlıq və sıx ünsiyyət qurmaqda onlara dəstək göstərməklə ölkə iqtisadiyyatın və ümumi biznes sektorunun inkişafına töhfə verir.

# “Əli və Nino” əsərində insan hüquqları problemi

XX əsrin əvvəlləri dünyanın bir çox xalqları və ölkələri üçün ən ziddiyyətli, kataklizmlərlə dolu, müxtəlif kolliziyaların mövcud olduğu tarixi dövr idi. Həmin dövr bir seçim fazası kimi də səciyyələnə bilər ki, bu da, xüsusən, Şərq xalqları üçün mühüm əhəmiyyət kəsb edirdi. Həmin xalqlar arasında azərbaycanlılar ön yeri tuturdu. Belə ki, həm coğrafi baxımdan Azərbaycanın Avropa ilə Asiyanın qovşağında yerləşməsi və həm də neft sənayesinin inkişafı ilə əlaqədar Bakının müxtəlif sahələr üzrə bəlkə də mərkəz şəhərlərindən birinə çevrilməsi buna zəmin yaradırdı. Ölkə, xüsusən, onun əsas şəhəri olan Bakı sanki seçim qarşısında qalmışdı. Necə olmalı? Əsrlərdən gələn ənənələr, adətlər yaşadılmalı və Şərqin bir hissəsi kimi qalmalı, yoxsa inkişafa maariflənməyə, müasir sivilizasiyanın bir hissəsinə çevirilməyə nail olmaq üçün Qərbə üz tutmalı?

Seçim axtarışı öz əksini Azərbaycan ədəbiyyatında da tapmışdır. Dolayısı və ya birbaşa olaraq, bu problemə həsr olunmuş müxtəlif əsərlər arasında “Əli və Nino” xüsusi yer tutur. Müəllif Məhəmməd Əsədbəy öz əsərində yuxarıda göstərilən ziddiyyətli baxışları Əli və Ninonun - əsərin baş qəhrəmanlarının qismində, kişi və qadın münasibətlərində vermişdir.

R.Məmmədov yazır: “Şərqlə Qərb arasında feminizm məsələsində müəyyən fərqlər olmuşdur. Bu baxımdan, Azərbaycanın mənəvi fikir tarixində xarici təsirlərə qarşı güclü mübarizə meyilləri diqqəti cəlb edir. Qədim dövrdən başlanan bu meyillər XIX-XX əsrlərədək davam edib gəlmiş, H.Zərdabinin, C.Məmmədquluzadənin, M.Ə.Sabirin, F.Köçərlinin yaradıcılığında daha geniş şəkil almış, öz inkişafının növbəti mərhələsinə keçmişdir. Bu mənada, C.Cabbarlının əsərləri, xüsusilə seçilir. İlk əvvəl onu qeyd edək ki, görkəmli Azərbaycan dramaturqu, yazıçı-tədqiqatçı qadın məsələsinin tərənnümçüsü, məhz qadınlar üçün yeni adqoyma sahəsində tam bir dövr açdı. O, yaradıcılığının məzmunu və qəhrəmanlarına seçdiyi gözəl milli adlarla güclü təsiredici və nümunəvi iş gördü. Ədib-dramaturq tarixi mövzuya müraciət edərkən təkcə “Od gəlini” pyesində VII-VIII əsrləri və ümumiyyətlə, Azərbaycan ruhunu, mənəvi fikir tarixini, dilini təmsil edən gözəl adlar seçmiş, qəhrəmanlarına vermişdi: Elxan, Solmaz, Qorxmaz, Dönməz, Sönməz, Toğrul, Gülgün, Altay, İldırım, Sevil, Yaşar, Gültəkin, Gülər, Gülüş, Sevər, Almaz, Gülsabah və s.”

Nurlanə Əliyeva yazır: “Ümumiyyətlə, Azərbaycan mühacirət ədəbiyyatının görkəmli nümayəndəsi olan Məhəmməd Əsədbəy öz əsərlərində Şərq və Qərb münasibətlərinə tez-tez toxunmuş, bunu kişi və qadın qismində vermiş və Şərq baxışlarını kişi qəhrəmanların, Qərb baxışlarını qadın qəhrəmanların fikirləri ilə vermişdir. Bu, bir tərəfdən, müəllifdə öz ailəsindən gələn münasibətlə formalaşmışdır. Qeyd edək ki, Bakıda azərbaycanlı neft sənayeçisinin ailəsində anadan olmuş Məhəmmədin anası Rusiyadan gələn ziyalı təbəqəsinə məxsus bir qadın olmuşdur. Digər tərəfdən isə, həm o dövrdə, həm də müasir zamanda Azərbaycan cəmiyyətində qarışıq nikahlarda kişi tərəfinin azərbaycanlı olması daha populyardır. Az ömür sürmüş (1905-1942), Almaniyada, Polşada, Avstriyada, özünün seçdiyi “Qurban Səid”, “Leo Nussimbaum” imzaları ilə əsərləri çap olunmuş, 20-yə yaxın kitabın müəllifi olan Məhəmməd Əsədbəy hansısa mədəniyyətin daha yaxşı olmasını deyil, pis və yaxşı tərəfləri ilə, necə varsa, o cür də göstərməyə çalışmışdır. Məsələn, gimnaziyanı yenicə bitirmiş Əliyə atası belə məsləhət verir: “Oğlum, indi, həyata qədəm basdığın anda mən sənə bir daha müsəlmanın vəzifələrini başa salmalıyam. Biz burada, Allaha imanın olmadığı bir diyarda yaşayırıq. Məhv olmamaq üçün qədim ənənələrimizi və köhnə həyat tərzimizi mühafizə etməliyik. Oğlum, tez-tez dua et. İçki içmə. Heç bir yad qadını öpmə. Yoxsullara və zəiflərə mərhəmət göstər. İman yolunda qılıncı sıyırıb can vermək üçün həmişə hazır ol. Son döyüş meydanında həlak olsan, bu, mən qocanı ağrıdacaq. Amma şərəfsiz olub sağ qalsan, mən qoca kişi xəcalət çəkəcəyəm”. Zənnimizcə, müəllif əsərdə Əlinin atası vasitəsilə adət-ənənələri müdafiə edən, dünyada baş verən dəyişiklikləri tam dərk edə bilməyən, dünyəvi təhsil almamış, yaşlı Azərbaycan zadəganlarının fikirlərini ifadə edir. Ortodoks müsəlman olan ata oğlunun xristian qızı ilə evlənmək istəyini biləndə, ona belə məsləhət verir. “Yaxşı iş görürsən evlənirsən. Mən üç dəfə evlənmişəm. Lakin arvadlarım payız milçəyi kimi ölüb gedirdilər. İndi isə, bildiyin kimi, heç evli də deyiləm. Amma sən evlənsən, bəlkə mən də evləndim. Sənin Ninon xristian qızıdır. Qoyma onu evinə yad imanı gətirsin. Bazar günləri onu kilsəyə göndər, amma evinə gərək keşiş ayağı dəyməsin. Qadın tez sınan bir qabdır. Bunu bilmək vacibdir. Hamilə olduğu vaxt onu döymə. Amma yadından çıxartma: evin ağası sənsən, o da sənin kölgəndə yaşamalıdır. Bilirsən ki, müsəlmanlar dörd arvadı birdən saxlaya bilər. Amma biri ilə kifayətlənsən yaxşıdır. Əlbəttə, Ninonun uşağı olmasa, başqa məsələdir. Arvadına sədaqətsizlik eləmə. Onun sənin toxumunun hər damlasına haqqı vardır. Zinakarlıq edən əbədiyyətə kimi lənətlidir. Onunla səbrli ol. Qadınlar uşaq kimidirlər, amma uşaqdan fərqli olaraq daha hiyləgər və daha yaman olurlar. Bunu bilməlisən, bu, çox vacibdir. İstədiyin vaxt ona çoxlu hədiyyələr gətir, ipək və daş-qaş ver. Amma ehtiyacın olanda, o sənə məsləhət verəndə, tərsinə hərəkət et”. Göründüyü kimi, dindar və konservator olan Əlinin atası qadınları “hiyləgər və yaman” adlandırsa da, onlarla alicənab formada münasibətdə olmağı da vurğulayır.

Çadralı və çadrasız qadınlara münasibət isə gənc və dünyəvi təhsil almış Əli tərəfindən belə qiymətləndirilir: “Başına mavi zolaqlı çadra örtmüş, ayağında şappıldayan ev başmağı geymiş bir qadın yanımdan keçdi. Çadranın altında yırtıcı quşun burnu kimi uzun və əyri bir burun göründü. Burun mənə tərəf yönəldi. Tez gözlərimi yana çəkdim. Məni qəribə bir yorğunluq bürüdü. Nə yaxşı ki, Nino çadra geymir və onun uzun və əyri burnu yoxdur! Yox, mən Ninonu heç vaxt çadranın altında gizlətməyəcəyəm. Bəlkə dəqiq bilmirdim. Bütün günəşin parıltısında Ninonun siması durdu gözlərimin qabağında, Nino Kipiani - gözəl gürcü adı! Avropa adətlərinə vurğun alicənab valideynləri olan Nino!” Fikrimizcə, burada nəyi isə şərh etmək artıq olardı.

Əlinin gimnaziyanı bitirməsinə, müasirlikdən xəbəri olmasına və ən başlıcası qəlbdən sevməsinə baxmayaraq, bəzən onu da Ninoya və eyni zamanda, Qərb-davranış qaydalarına münasibətlərinə tərəddüdlər və şübhələr bürüyür: “Mən Ninonu sevirəm, amma, o yenə də məni çaşdırır, heyrətə və şübhəyə salır. Küçədə özgə kişilər ona baxanda sevinir. Əxlaqlı bir Şərq qadınını bu, hirsləndirərdi. O, məni öpür. Mən onun döşlərini və baldırlarını tumarlayıram, amma biz heç nişanlı da deyilik, axı! O eşq-məhəbbət kitablarını oxuyanda, gözləri xəyal və arzu hissi ilə dolur. Soruşanda ki, axı, nəyin həsrətindəsən? Təəccüblə başını yırğalayır ki, özüm də bilmirəm. Nino yanımda olanda, ümumiyyətlə, arzum və həsrətim olmur. Məncə, Ninodakı bu xasiyyət onu tez-tez Rusiyaya getməsindən irəli gəlir. Atası onu həmişə özü ilə Peterburqa aparardı. Rus qadınlarının isə dili və ağlını itirmiş qadınlar olduğunu hamı bilir. Onların gözləri ehtirasla dolu olur, ərlərini tez-tez aldadır, başqaları ilə gəzirlər. Amma, buna baxmayaraq nadir hallarda onların ikidən çox uşağı olardı. Allah onlara belə cəza verib!” Bütün şübhə və tərəddüdlərin baş qaldırmasına baxmayaraq, məhəbbət yenə qalib gəlir: “Bununla belə mən Ninonu yenə sevirəm.”

Müəllif Şərq və Qərb arasındakı müxtəlif fərqləri, ziddiyyətli məqamları, əsərin qəhrəmanlarının ayrı-ayrı personajlarının dialoqları vasitəsilə verməyə çalışır. Belə dialoqlardan birində, bütün fərq və ziddiyyətləri ilə birlikdə, Şərq səhraya, Qərb isə meşəyə bənzədilir. Əli bəy və qoca Didiani arasında dialoq qismində maraqlı müqayisə aparılır: “Ağaclar sizin üçün nə qədər əzizdirsə, mənim üçün də səhra əzizdir. Möhtərəm Didiani, ağacların olduğu dünya məni kanıxdırır, çaşdırır. Bu dünya vahimə və tapmaca ilə, cin və şeytanlarla doludur. Baxış sahəsi dardır, keçilməz və qaranlıqdır. Günəş şüaları ağacların kölgəsində hərarətini itirir. Hər şey alatoran və qeyri-realdır. Meşənin kölgəsi məni sıxır, bulaqların xışıltısını eşidəndə isə, kədərə qərq oluram.

Mən sadə şeyləri sevirəm - küləyi, qumu və daşları. Səhra qılınc zərbəsi kimi sadədir. Meşə isə Qordi düyünü kimv dolaşıqdır. Mən meşədə çaşıb - qalıram, möhtərəm Didiani”. Əlinin fikrinə münasibət bildirən Didianinin sözləri ilə, müəllif söhbətin nədən getdiyini açıq şəkildə izah edir: “Sizdə səhra adamının ruhu var. Görünür, insanın bölmək üçün yalnız bir doğru üsulu vardır: insanları meşə adamlarına və səhra adamlarına bölmək lazımdır. Şərqin içkisiz sərxoşluğu səhradan gəlir. Səhrada isti külək və qızmar qum insanları sərxoş edir. Səhra dünyası sadə və problemsiz bir dünyadır. Meşə isə suallarla doludur. Yalnız səhra sual vermir, məhsul vermir və heç nə vəd etmir. Lakin ruhun atəşi, qığılcımı meşədən gəlir. Səhra adamı, yəni gördüyüm və təsəvvür etdiyim səhra adamı yalnız bir və bir həqiqətə malikdir: bu iki şeydir onun daxilində olan.

Meşə adamı isə çoxsifətlidir. Təəssübkeşlər səhradan gəlirlər, yaradıcılar isə meşədən. Şərq ilə Qərb arasında əsas fərq də elə budur.”

Bəzən əsərdə bu tip mövzudan olan mübahisələr bir-birini sevən iki gənc arasında da olur: “Mən istəyirəm ki, sən enli küçələri və yaşıl meşələri sevəsən. Mən istəyirəm ki, sən Asiyanın çürük divarlarına yapışıb qalmayasan, həyatı yaxşı başa düşəsən. Mən qorxuram ki, bir on ildən sonra sən möminləşib, hiyləgər bir adama çevriləcəksən və Gilandakı malikanəndə oturub günlərin bir günü mənə deyəcəksən: “Nino, sən yalnız bir tarlasan”. İndi sən özün de görüm, axı məni nə üçün sevirsən?

-Səni nə üçün sevirəm, Nino? Səni, sənin gözlərini, sənin səsini, sənin ətrini, yerişini sevirəm. Nino, axı, bundan artıq nə istəyirsən. Mən səni bütünlüklə sevirəm. Başa düş ki, Gürcüstan ilə İranın sevgisi birdir. Sizin böyük şairiniz Rustaveli min il bundan qabaq, bax, burada dayanmışdı. O, kraliça Tamaraya burada məhəbbət mahnıları oxuyurdu. Onun mahnıları İran rübailəri kimidir. Rustavelisiz Gürcüstan, İransız Rustaveli ola bilməz”. Göründüyü kimi, tərəddüd və fərqlilik haqqında fikirlər təkcə Əlini deyil, Ninonu da tez-tez narahat edir. Digər tərəfdən, ətrafının, xüsusən də, ailəsinin dostu qismində qəbul etdiyi Naxararyanın ardı kəsilməyən təbliğatı da öz işini görür. Müəyyən vaxtda, həmin şübhə və təbliğatın nəticəsində, Nino Əlidən üz döndərir və Naxararyanın onu qaçırtmasına etiraz etmir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 13 oktyabr

## Anormal qidalanma-Pikasizm



Pikasizm iştahanın təhrif olunmasına deyilir. Pikasizm latın dilində "pica" sözündən götürülüb, tərcüməsi "sağsağan quşu" deməkdir. Onun bu cür adlandırılması da səbəbsiz deyil-deyilənə görə həmin quş dad hissiyatından məhrumdur.

Bu barədə AZƏRTAC-a verdiyi müsahibədə Respublika Kliniki Uşaq Xəstəxanasının həkim-hematoloqu, tibb üzrə fəlsəfə doktoru Sevinc Əlifəttahzadə deyib: "Pikasizm qidaya aid olmayan, zərərli maddələrin, məsələn, sabun, yuyucu toz, soda, üyüdülmüş kofe, tabaşir, ot, daş, qum, torpaq, qurumuş boya, kömür, pas, siqaret külü, pozan, diş pastası, paltar sapı və s. yeyilməsidir. Təbii ki, bu, qidalanma anomaliyasıdır. Çox kiçik yaşlı uşaqlarda və psixi pozuntu problemi olanlarda həmin halla rastlaşmaq mümkündür. Əvvəllər pikasizm anlayışı tamamilə insana yad ifadə kimi qəbul edilirdi. Lakin son vaxtlar onu orqanizmdə bir çox mineralların, məsələn, dəmir və s. çatışmazlığı ilə əlaqələndirirlər.

Cinsi yetkinlik dövrünə qədər uşaqların 15 faizi pikasizmdən əziyyət çəkir. Bundan başqa hamiləlik mərhələsində olan qadınların 65 faizində pikasizmə rast gəlinsə də, doğuşdan sonra həmin hal keçib gedir. Pikasizmlə üzləşənlərdə tez-tez köp və qəbizlik kimi problemlər müşahidə edilir.

Həkimlərin fikrincə, pikasizm iştahanın mərkəz mənşəli olması ilə əlaqədardır. Lakin indiyə qədər uşaq pikasizminin müalicəsi tapılmayıb. Ehtimal ki, uşaqlarda olan həmin patoloji vəziyyət böyüyəndən sonra tədricən keçib gedir".

Hamiləlik zamanı yaranan pikasizm hallarından danışan həkim bunun səbəbinin tam müəyyən edilmədiyini bildirib: "Alimlər mümkün versiyaları artan progesteron hormonunun üzərində cəmləşdirirlər. Çünki hamiləlik zamanı qadının beynində "hamiləlik dominantı" yaranır və onun sayəsində qadın psixoloji cəhətdən körpəni dünyaya gətirməyə çalışır. Hamilə qadının orqanizmində artan progesteron hormonu bədənin bütün ehtiyatlarını birləşdirərək dölü lazımi qida maddələri, mikroelement, vitaminlər və s. ilə təmin etməyə "məcbur edir". Orqanizmdə hansı elementdə qıtlıq varsa, onun yerini "doldurmaq" üçün tələbat yaranır. Hamilə qadınlarda müxtəlif ətirlərə, qoxulara, yeməklərə, yeməli olmayan şeylərə qarşı yaranan hədsiz hərisliyi məhz bununla əlaqələndirirlər. Onu aradan qaldırmaq üçün pikasizmə meyil edənlərlə psixoloji söhbətlər aparılır, dəmir preparatları və vitaminlər təyin edilir".

Həkim-hematoloq deyib: "Vitamin B 12 çatışmazlığı zamanı xəstələrin bir qismi dildə olan ağrılardan, xüsusilə də turş qidalar yedikdə yanma hissindən şikayət edirlər. Onların dili üzərində iltihabi ocaqlar, çatlar və səpgilər əmələ gəlir. Dil üzərindəki məməciklərin atrofiyaya uğraması nəticəsində isə dil hamar və parıltılı olur, iştaha pozuntusu, ət qidalarına qarşı ikrah hissi yaranır. Çox zaman dəmir defisitli anemiyalı xəstələrdə "qida eybəcərliyi" əmələ gəlir. Bəzən həmin əlamətləri anadangəlmə anomaliya kimi qəbul edirlər. Düzgün müalicə olunan xəstələrdə həmin əlamətlər keçib gedir".

## Paytaxt ərazisində 100-ə yaxın mənzildən oğurluq edən şəxs saxlanılıb

Xətai Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən uğurlu əməliyyat-axtarış tədbiri nəticəsində paytaxt ərazisində mənzillərdən və saxlanc yerlərindən silsilə oğurluqlar edən paytaxt sakini Zaur Süleykin saxlanılıb. DİN-dən Trend-ə verilən məlumata görə, araşdırma zamanı onun evlərin pəncərələrini və dəmir barmaqlıqlarını sındıraraq pul, qızıl-zinət əşyaları, habelə təmir-tikinti alətləri oğurlaması müəyyən edilib. Z.Süleykinin ətrafında həyata keçirilən əlavə tədbirlərlə onun paytaxtın müxtəlif rayonları, həmçinin Sumqayıt şəhəri ərazilərində bu ilin əvvəlindən saxlanılana qədər 100-ə yaxın mənzildən oğurluq etdiyi məlum olub. O, istintaqa verdiyi ifadəsində təkcə Xətai rayonunda 25 mənzildən oğurluq etdiyini etiraf edib.

**ELAN**

ADPU-nun IV kurs tələbəsi Məmmədova Nuranə Üzeyir qızının adına verilmiş Kimya müəllimliyi ixtisası üzrə tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

ADPU-nun II kurs tələbəsi Bayramalıyeva Kübra İsa qızının adına verilmiş Tarix müəllimliyi ixtisası üzrə tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Milli komandamızdan qələbə!



Futbol üzrə UEFA Millətlər Liqasında qrup mərhələsinin 3-cü turunun oyunlarına start verilib. D liqasının 3-cü qrupunda yer alan millimiz də növbəti görüşünü keçirib. Qurban Qurbanovun komandası səfərdə Farer adaları yığmasının qonağı olub və 3:0 hesabı ilə qalib gəlib. Bu, millimizin turnirdəki ilk qalibiyyəti olub. Qələbə ilə xalını 5-ə çatdıran yığmamız turnir cədvəlində ikinci pilləyə yüksəlib. Digər görüşdə Kosovo Maltaya 3:1 hesabı ilə qalib gələrək liderliyini qoruyub. Qeyd edək ki, komandamız növbəti turda Malta ilə qarşılaşacaq. Bakı Olimpiya Stadionunda keçiriləcək oyun oktyabrın 14-də saat 20:00-da başlayacaq.

# Qurban Qurbanov: "Rəqib uduzsa da, ciddi müqavimət göstərdi"



Komandamızı təbrik edirəm. Bizim üçün çox vacib qələbə idi. Oyundan əvvəl mətbuat konfransında heç bir çətinlik haqda düşünməməliyik demişdim. Amma bu gün çətinlik həddən artıq çox oldu. Buna baxmayaraq, lazımi xarakter göstərdik.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan millisinin baş məşqçisi Qurban Qurbanov səfərdə Farer Adalarına 3:0 hesabı ilə qalib gəldikləri UEFA Millətlər Liqasının III tur matçından sonra mətbuat konfransında deyib.

"Oyuna aktiv başlamaq istəyirdik. Lakin meydan sahibləri azarkeşlərin dəstəyi ilə irəli atıldılar və ilk dəqiqələrdən qol vurmağa çalışdılar. Biz isə texniki səhvlərə yol versək də, tədricən oyunu ələ almağa və qollar vurmağa başladıq. Rəqib uduzsa da, ciddi müqavimət göstərdi. Standart vəziyyətlərdə və uzun toplarda rəqib həddindən artıq təhlükəli idi. Farer Adaları meydanda nə etdiyini yaxşı bilir. Malta Kosovo ilə oyunda 1:1 hesablı heç-heçə etdiyi vaxt qırmızı vərəqə alıb və bundan sonra uduzub. Qrupdakı istənilən komanda qələbəyə qadirdir. Üç gündən sonra bizi vacib oyun gözləyir. Çətin səfərdən sonra hazırlığı bərpa edib, Malta ilə oyuna ən vacib matç kimi çıxmalıyıq. Qrupumuzda istənilən komanda qələbə qazanmağa qadirdir", - deyə təcrübəli mütəxəssis bildirib.

# Nurməhəmmədov ilə Makqreqor arasındakı qarşılaşmada yeni rekord!



"UFC 229" turniri çərçivəsində dağıstanlı Həbib Nurməhəmmədov ilə irlandiyalı Konor Makqreqor arasında oktyabrın 7-də ABŞ-ın Las-Veqas şəhərində keçirilən qarşılaşma ödənişli yayımların satışı üzrə bu yarışın tarixində rekord olub. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, turnirin yayım hüququ UFC tarixində rekord məbləğə - 2,4 milyon dollara satılıb. Bundan əvvəlki ən yüksək məbləğ 2016-cı il avqustun 20-də keçirilən "UFC 202" turnirində qeydə alınıb - 1,5 milyon dollar. Həmin turnirin əsas döyüşü Konor Makqreqor ilə amerikalı Neyt Dias arasında olub.

Xatırladaq ki, Həbib Nurməhəmmədov ilə Konor Makqreqor arasında döyüşdə dağıstanlı idmançı 4-cü raundda qalib gələrək yüngül çəki dərəcəsində UFC çempionu titulunu qoruyub. Bu qələbə sayəsində Həbib Nurməhəmmədov UFC-nin yeni reytinq siyahısında altı pillə irəliləyərək ikinci sıraya yüksəlib. Konor Makqreqor isə ikinci pillədən səkkizinci pilləyə geriləyib.

# Bolt futbol matçında start heyətdə meydana çıxacaq



Yüngül atletika üzrə 8 dəfə olimpiya çempionu Useyn Bolt Avstraliyanın "Sentral Kost Marineərs" komandasının tərkibində "Makartur Saut Vest Yunayted" klubuna qarşı keçiriləcək matçın start heyətində yer alıb. SİA-nın məlumatına görə, "Sentral Kost Mariners" hazırda Avstraliyanın A liqasında yarışır. Qarşıdakı oyun yeni mövsümə hazırlıq məqsədi daşıyır. Bolt 95 nömrəli forma ilə çıxış edəcək. Qeyd edək ki, Useyn Bolt bu yay sözügedən klubun heyətinə qatılmaqla futbolçu karyerasına başlayıb.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**